

Milli azadlıqdan şirin nemət yoxdur!

# Ölkəmizin artan nüfuzu yaxın dost və etibarlı tərəfdaş kimi Çini sevindirir



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
15 may 2024-cü il, çərşənbə
№ 085 (6671)
Qiymәti 60 qəpik

# Əsas iqlim çağırışları

## Azərbaycan köməyə hazırdır




Bax səh. 2



# Qərb reallıqla barışmaq məcburiyyətindədir

Bax səh. 5

# Bakı-Sofiya: Sürətlə və uğurla inkişaf edən əlaqələr

Bax səh. 3

## İxracın yeni körpüsü



Bax səh. 4

# 15 il sonra ilk dəfə...

## Milli QHT Forumunun X qurultayında yeni tərkib formalaşdı!

Bax səh. 4

## Türk dünyasının birliyinə doğru daha bir addım...




Bax səh. 3

## Ölkəmizdə siyasi mədəniyyəti formalaşdıran amillər...

Demokratik cəmiyyətlər və ölkələrdə vətəndaşlar hüquqlarının müdafiəsi üçün minimum siyasi mədəniyyətə malik olmalıdırlar. Çünki siyasi mədəniyyət özünü insanın bütün fəaliyyət sahələrində göstərir. Vaxtilə siyasi mədəniyyətin inkişafında mühüm rol oynayan Amerika alimi T.Almond siyasi mədəniyyət dedikdə, “fərdi mövqelərin və müəyyən sistem üzvlərinin siyasi fəaliyyətinin hərəkət və məqsədlərinin məcmusu”nu nəzərdə tutub. C.Foster isə siyasi mədəniyyəti “cəmiyyət üzvlərinin siyasi fəaliyyətinin birgə fikrinin ümumi çəkisi” kimi səciyyələndirirdi. Polşa alimi E.Vitr belə hesab edirdi ki, siyasi mədəniyyət - hakimiyyət və vətəndaşlar arasında qarşılıqlı əlaqələrin əxlaq kodeksinin, dəyərlərinin və mövqelərinin ümumi məcmusundan...

Bax səh. 5

## Zəngəzur eşqiylə döyünən qəlblər...

Böyük Qələbə ilə nəticələnən Vətən müharibəmiz 30 ilə yaxındır düşmən işğalında olan Qarabağımızı özünün əsl sahiblərinə geri qaytarmaqla yanaşı, bütövlükdə, Azərbaycan xalqının qəlbində təptəzə ümid, yepyeni inam cücərtdi. Bu ümidlə dörd ildir ki, xalqımız gələcəyi daha parlaq, daha işıqlı, daha aydın görür. Axı Qarabağ bu başıbəlalı xalqın ilk itkisi, ilk həsrəti deyil. Məsələn, indi Qarabağa başlayan köçə həsrətlə baxan, bir zamanlar özlərinin də beləcə öz yurd-yuvalarına qovuşacağına inanan Qərbi azərbaycanlılar- zəngəzurlular, göyçəlilər, dərələyəzlilər, vedililər var... Axı onlar da öz ata-baba yurdlarının həsrəti ilə ömür sürür, saç ağardırlar...

Onlardan biri də Quliyev Əkbər Hüsü oğludur. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin texniki avadanlıq üzrə mütəxəssisi olan Əkbər bəy əslən Qərbi Azərbaycanın Zəngəzur mahalının Gorus rayonunun...

Bax səh. 6

## Xəyanətin acı nəticələri

XX əsrin son onilliyində ikinci dəfə özünün müstəqilliyini əldə edən Azərbaycan dövləti böyük sınaqlarla üz-üzə qaldı. 1990-92, o cümlədən 1993-cü ilin birinci yarısnda baş verən proseslər Azərbaycanı böyük təhşlükələrə sürükləmiş, torpaqların işğal altına düşməsinə vəsilə olmuşdu. Bu gün azadlığını qeyd etdiyimiz, 30 ildən sonra ilk sakinlərini qarşılayan Şuşa, Laçın kimi rayonlarımız siyasi oyunların qurbanına çevrilərək işğal altına düşmüşdü. 32 il öncə - 1992-ci ilin mayında baş verən bu faciələr ölkəmizdə hakiimyyətə yiyələnmək istəyən qüvvələrin xəyanətini bariz şəkildə ortaya qoyur. Qeyd edək ki, 1992-ci ilin fevralında baş vermiş Xocalı soyqırımı həmin dövrdə mövcud hakimiyyəti devirərək iqtidarı ələ almağa çalışan Azərbaycan Xalq Cəbhəsi üçün mühüm fürsətə çevrildi. O dövrdə Azərbaycan prezidenti olan Ayaz Mütəllibov AXC-nin təzyiqi ilə 6 martda prezident vəzifəsindən istefa verdi. Növbəti prezident seçkilərinə...

Bax səh. 5

## Rediküllər bu dəfə “Avropa aşiqi” qiyafəsində...

Ölkəmizdəki rediküllər düşərgəsində çox teztez sərsəm iddiaların səsləndirilməsi bir növ adət halını alıb. Belə “xoruz banı eşitməmiş” fikirlər düşərgəyə bir qayda olaraq AXCP sədri Əli Kərimli tərəfindən ötürülür. Sonradan isə onun Cəmil Həsənli, Qənimət Zahid, filankəs O.qızı, Gültəkin Hacıbəyli, Fuad Qəhrəmanlı kimi çiyindaşları bu “tezisləri” özlərisayağı inkişaf etdirməkdən ötrü dəridən-qabıqdan çıxırlar.

Budur, AXCP sədri son olaraq Avropa mövzusu ilə gündəmə gəlib. Əli Kərimli özünü sözün əsl mənasında Avropa aşiqi qiyafəsində təqdim edir. O, fərqinə varmadan Avropa İttifaqını dünyanın “ən mütərəqqi siyasi layihələrindən biri” kimi təqdim edərək bildirir ki...

Bax səh. 7

## Qafqazı “qarışdıran əl”



Bax səh. 6

## İcbari Tibbi Sığorta ilə...



Bax səh. 6

# İlham Əliyev: ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır

## Azərbaycan Prezidenti ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, İan Borq Azərbaycan Prezidenti ilə bu il Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşü və müzakirələri məmnunluqla xatırlayaraq səfərinin regional xarakter daşıdığını dedi.

O, Maltanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını və sülh müqaviləsi üzrə danışıqlar prosesini dəstəklədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin təşəbbüskarı məhz ölkəmiz olub və sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilib. Dövlətimizin başçısı bildirdi ki, hazırda sülh gündəliyinin irəliyə aparılması üçün Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam etdirilir.

Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılması ATƏT-in yaranmasından bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək, işğala son qoyub. Artıq Ermənistan-Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını deyən dövlətimizin başçısı qeyd etdi ki, buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür.



Görüşdə ATƏT çərçivəsində nəqliyyat bağlantıları məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İan Borq ölkəsinin kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər konsepsiyasını yaxından dəstəklədiyini və bu ölkələrin Avropa İttifaqı ilə əlaqələrinin inkişafına daim dəstək verdiyini diqqətə çatdırdı. O, Azərbaycanın COP29-a sədrlik etdiyini nəzərə alaraq bu mövzuda da ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizin COP29-a sədrliyi çərçivəsində kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər mövzusu Azərbaycanın prioritetlərindən biri olacaq. Bu xüsusda Azərbaycan Prezidenti Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendin ölkəmizə səfərini qeyd edərək, bu təşkilat çərçivəsində olan kiçik ada dövlətləri və bu kateqoriyadan olan digər ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi, onların üzləşdiyi ekzistensial problemlərlə bağlı məsələnin COP çərçivəsində qaldırılması və müxtəlif tədbirlərin keçirilməsinə toxundu. Bu xüsusda Azərbaycanın da Malta ilə əməkdaşlıqda maraqlı olduğu ifadə edildi.

# Ölkəmizin artan nüfuzu yaxın dost və etibarlı tərəfdaş kimi Çini sevindirir

## Prezident İlham Əliyev Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, ikitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığınlı qeyd etdi.

Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüşləri dostluq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi və Si Cinpinlə növbəti görüşü məmnuniyyətlə gözlədiyini dedi.

Əlaqələrimizin daha yüksək səviyyəyə qaldırılması üçün real imkanların olduğunu və artıq ölkələrimizin müxtəlif sahələrdə çox yaxından əməkdaşlıq etdiklərini bildirən dövlətimizin başçısı son vaxtlar Azərbaycan ilə Çin arasında müxtəlif səviyyədə qarşılıqlı rəsmi səfərlərin sayının artdığını dedi, bunun da əlaqələrimizin möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində artımın olduğunu deyərək, insanların qarşılıqlı gediş-gəlişinin artdığını da məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Şen Yueyuenin Azərbaycana səfərinin məhsuldar olacağına, dostluq əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə və əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əmin olduğunu bildirdi.

Qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: “Uzun illərdir ki, Siz Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Çin xalqının dostusunuz. İlk növbədə, Sizə Çin Xalq Respublikasının Sədrinin salamlarını və ən xoş arzularını çatdırmaq istərdim. Son illər sizin qətiyyətli və müdrik rəhbərliyinizlə Azərbaycan xalqı birlik göstərərək inkişaf yolu ilə gedir. Ölkənizdə dayanıqlı sabitlik, sürətli iqtisadi inkişaf müşahidə edilir və Azərbaycanın qüdrəti böyük dərəcə artmışdır”.



Şen Yueyue Çinin Azərbaycan xalqının öz inkişaf yolu ilə bağlı etdiyi seçimini və Azərbaycanın Cənub-Cənub xətti üzrə qlobal iqlim dəyişiklikləri ilə bağlı fəal beynəlxalq əməkdaşlığını dəstəklədiyini vurğuladı. O, dünyada Azərbaycanın nüfuzunun daim artdığını deyərək, bildirdi ki, bu, ölkəmizin yaxın dostu və etibarlı tərəfdaşı kimi Çini sevindirir.

Azərbaycanda keçirilən prezident seçkilərinə toxunan Şen Yueyue dövlətimizin başçısının bu seçkilərdə inamlı qələbə qazandığını vurğulayaraq təbriklərini çatdırdı və bunu Azərbaycan xalqının Prezident İlham Əliyevin siyasətinə olan böyük dəstəyinin nümayişi kimi dəyərləndirdi. Qonaq Çin xalqının özünə yaxın hesab etdiyi Azərbaycan xalqına inkişaf yolunda yeni uğurlar arzuladı. O, Si Cinpin ilə Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı planları müəyyənləşdirdiklərini qeyd edərək iki dövlət başçısının strateji rəhbərliyi ilə Çin-Azərbaycan münasibətlərinin yeni mərhələyə qalxacağına və xalqlarımızın rifahına xidmət edəcəyinə əminliyini bildirdi.

Çin Xalq Respublikasının Sədrinin salamlarına, təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Çinin ərazi bütövlüyünü və “Vahid Çin” siyasətini daim dəstəkləyib. Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən verilmiş açıqlamada Tayvanda keçirilən seçkilərin pislənilməsi və Çinin ərazi bütövlüyünə bir daha dəstəyin ifadə olunması qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, dünyada hələ də separatizmin dəstəklənməsi və ikili standartlara əsaslanan siyasətin aparılması tendensiyaları özünü büruzə verməkdədir.

Qonaq vurğuladı ki, Çin Xalq Respublikası daim Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqiliyini dəstəkləyib. O, “Vahid Çin” siyasətinə görə Azərbaycana təşəkkürünü bildirdi.

Azərbaycanın öz milli maraqları əsasında siyasət həyata keçirdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, Si Cinpinin rəhbərliyi ilə Çin Xalq Respublikasının, o cümlədən Çin iqtisadiyyatının əldə etdiyi nailiyyətlər Azərbaycanı dost və tərəfdaş kimi sevindirir. Çinin dünya iqtisadiyyatında mühüm yer tutduğunu vurğulayan dövlətimizin başçısı bunun qlobal iqtisadiyyatın inkişafı üçün çox vacib olduğunu dedi.

Qonaq COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxundu.

Söhbət zamanı vurğulandı ki, Azərbaycan Qlobal Cənubun tərkib hissəsidir və bu xüsusda Qoşulmama Hərəkatı çərçivəsində bu ölkələrin maraqlarını müdafiə edib. Həmçinin COP29 çərçivəsində də Azərbaycan Qlobal Cənub ölkələrinin maraqlarının təmsil olunmasına öz səylərini əsirgəməyəcək.



Vurğulandı ki, ölkəmiz COP29 çərçivəsində də Çin Xalq Respublikası ilə əməkdaşlığa hazırdır və Azərbaycanın COP29 nümayəndə heyəti Çinə səfər edərək müzakirələr aparıb.

Görüşdə hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Çin nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi layihələri qeyd edərək xalq diplomatiyası çərçivəsində Çinin aidiyyəti təşkilatları ilə əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verdiyini vurğuladılar.

Prezident İlham Əliyev hakim partiyalar arasında əməkdaşlığa toxunaraq, Çin Xalq Respublikasının müxtəlif təşkilatları ilə Heydər Əliyev Fondu arasında xalq diplomatiyası əsasında həyata keçirilən mədəni-humanitar tədbirlərin əhəmiyyətini qeyd etdi.

Söhbət zamanı bərpaolunan enerji sahəsində Çin şirkətlərinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdikləri bildirildi, Azərbaycanda elektroavtobusların və elektroavtomobillərin, həmçinin bərpaolunan enerji vasitələrinin istehsalının təşkili və bu istiqamətdə Çin şirkətləri tərəfindən investisiyaların qoyulması məsələsi müzakirə olundu.

Görüşdə Azərbaycanla Çin arasında siyasi, iqtisadi, sərmayə, nəqliyyat, “yaşıl enerji”, xalq diplomatiyası və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, Çin-Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni müstəviyə çatdığı bildirildi. Ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyi, “Bir kəmər, bir yol” layihəsi, Orta Dəhlizin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

# Əsas iqlim çağırışları

## Azərbaycan köməyə hazırdır

Hazırda dünya miqyasında meydana çıxan əsas çağırışlardan biri iqlim dəyişmələri ilə bağlıdır. Qlobal istiləşmənin yaratdığı təhdidlər bütün ölkələr üçün təhlükəlidir. Xüsusilə də bu təhlükə kiçik ada dövlətləri üçün kritik həddə çataraq mövcudluq anlamında qəbul olunur. Belə kədərli reallıq fonunda iqlim dəyişmələrinin mənfi təsirlərini öz üzərində də hiss edən Azərbaycan xoş məram ortaya qoyaraq birgə fəaliyyət planlarına töhfələr verməyə hazır olduğunu bildirir. Azərbaycanın cari ilin ikinci yarısında ev sahibliyi edəcəyi COP29 konfransına ciddi hazırlıqlar görməsi bunu əyani şəkildə təsdiqləyir. Prezident İlham Əliyev mayın 13-də Tuvalunun general-qubernatoru Falani Tofinqanı, Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolaunu və Baham Adaları Birliyinin xarici işlər naziri Mitçel Frederik Audleyi qəbul edərkən ölkəmizin mövqeyini bir daha diqqətə çatdırıb. Qonaqları konfransa dəvət edən dövlətimizin başçısı vurğulayıb: “Əlbəttə, ümidvaram ki, siz konfransın açılış mərasimində olacaqsınız. Beləliklə, bu, ikitərəfli gündəliyimizi, bizim birlikdə necə çalışa biləcəyimizi və bu ciddi iqlim çağırışı ilə bağlı sizi necə dəstəkləyə biləcəyimizi müzakirə etmək üçün yaxşı fürsətdir”.

### Qlobal iqlim dəyişmələrinin fəsadları

İndiyədək çoxsaylı insan tələfatına səbəb olan, ölkələr arasında düşmənçilik yaradan, müxtəlif sivilizasiyaların tarixi izlərini Yer üzündən birdəfəlik silən müharibələr bəşəriyyətin gələcəyi üçün ən fəlakətli təhlükə hesab olunurdu. İndi isə ekoloji dəyişmələrin fəsadları ağır, çoxillik müharibələrin nəticələri ilə müqayisə olunur və burada risk amilinin daha çox olduğu bildirilir. Çünki müharibələri hər halda idarə etmək və ən zəruri hallarda kritik qərarlar qəbul etmək mümkündür. Qlobal iqlim dəyişmələrinin qarşısının alınması isə daha çətin görünür.

Dünyanı təhdid edən iqlim dəyişmələrinin qlobal istiləşmə və sürətli sənaye inkişafının nəticəsi olaraq yarandığı bildirilir. Uzun illərdir ki, dünyada artan əhali neft, qaz, kömür yandırır. Eyni zamanda, avtomobillərin sayı sürətlə artır. Bütün bu kimi fəaliyyətlər atmosverə daha çox həcmlərdə tullantıların, karbon qazının buraxılması ilə nəticələnir. Eyni zamanda, qlobal istiləşmənin sürətlənməsi həyəcan təbili çalmağa əsas verir. 2011-2020-ci illər arasında buzlaqların əriməsi əvvəlki 10 illərlə müqayisədə 75 faiz artıb. Ötən il dünyatarixinə ən isti il kimi daxil oldu. Təbii fəlakətlərin - isti küləklərin, qasırğaların, yağıntıların, sel və daşqınların sayı əhəmiyyətli dərəcədə artıb. Okeanın səthi əvvəllər 1000 metr dərinliyə qədər qızırdısa, artıq bu göstərici 2000 metr dərinliyə qədər çatır.

Fəsadlar da çox ağırdır. Ekstremal hava şəraiti, hidroloji və iqlim hadisələri insan təhlükəsizliyinə, milli iqtisadiyyatlara, şəhər və kənd mühitinə, qida və su təhlükəsizliyinə öz mənfi təsirlərini göstərir. Təəssüf ki, biz belə mənfi təsirlərin statistikasında sürətli artım dinamikasını izləyirik. Ətraf mühitin çirklənməsi, müxtəlif təbiət hadisələri hər il təxminən 13 milyon insanın həyatına son qoyur. Bu gün iqlim dəyişikliyi insanları yoxsulluğa sövq edən və həyat tərzinin yaxşılaşmasına mane olan əsas problemlərdən biri qismində çıxış edir. XXI əsrin ikinci onilliyində (2010-2019) ekologiya ilə bağlı hadisələr hər il orta hesabla 23,1 milyon insanı öz daimi yaşayış yerindən köçmək məcburiyyəti ilə üz-üzə qoyub.

Azərbaycan da qlobal iqlim dəyişmələrindən əziyyət çəkən ölkələr sırasında yer alır. Bir qədər bundan əvvəl “Azərkosmos” “Yaşıl dünya naminə həmrəylik İli”nə həsr olunmuş konfransda qlobal iqlim dəyişmlərinin Azərbaycanda təsirinə dair hazırladığı rəqəmsal iqlim platformasını ictimaiyyətə təqdim edib. “Azərkosmos”un peyk görüntülərinə dayanaraq apardığı hesablamalar göstərir ki, ölkədəki su anbarlarının çoxunda azalmalar baş verib. Məsələn, 2017-ci ildə ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarının güzgü səthinin sahəsi 48 min 259 hektar idisə, ötən il bu rəqəm 46 min 438 hektara enib. Deməli, 2 min hektara yaxın azalıb. “Azərkosmos”un hesablama apardığı Araz su anbarında bu azalma 1 min 800 hektar, Yenikənd su anbarında 74 hektar, Taxtakörpü su anbarında isə 286 hektar olub. Göstəriciləri açıqlanan beş su anbarından yalnız Şəmkir su anbarının güzgü səthinin sahəsi 2017-ci ildən bəri artıb və 5 min 650 hektardan 8 min 993 hektara yüksəlib. “Azərkosmos” peyk görüntüləri ilə ölkənin ən böyük çayı olan Kür çayını da monitorinq edib. Həmin görüntülərin təhlili göstərir ki, 2020-ci ildə Kürün Salyan şəhəri yaxınlığından keçən hissəsində çayın orta eni 101 metr idisə, 2023-cü ilin eyni dövründə bu göstərici 93 metrə enib. Bununla, üç il ərzində Kürün orta eni 8 metr azalıb. Müşahidə aparılan dövrdə Kürün eninin ən az olduğu dövr 2021-ci ilə təsadüf edib. Həmin vaxt Kür çayının Salyan şəhəri yaxınlığından keçən hissəsində orta en göstəricisi 68 metrə qədər geriləyib. Təqdim olunan bu kimi faktlar həyəcan təbili çalmağa əsas verir. “Artıq dediyim kimi, hər kəs, o cümlədən Azərbaycan iqlim dəyişmələrindən əziyyət çəkir. Sizdə su artıqdır. Bizdə isə su azdır. Bizdə quraqlıq, sizdə isə dənizin ərazinizə daxil olması var. Bununla belə, hər bir ölkə problemlə üzləşir, lakin sizin üçün bu, mövcudluqla bağlıdır”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Kiçik ada dövlətlərinin problemləri

Narahatlıq yaradan həm də o amildir ki, qlobal istiləşmənin azalacağı ilə bağlı hər hansı bir proqnoz verilmir. Əksinə bildirlir ki, indiki vəziyyət davam edərsə, 2050-ci ilə qədər yerdə temperatur 1,5 dərəcə, 2100-cü ilə qədər isə 4,6, hətta 6 dərəcəyə qədər arta bilər. Bunun fəsadlarının kiçik ada dövlətləri üçün necə ağır olacağını təsəvvür etmək çətin deyil. Bu barədə qəbulda ətraflı müzakirələr aparıldı. Kiçik ada dövlətlərinin əsas problemləri ondan ibarətdir ki, onlar dörd bir tərəfdən su ilə əhatə olunublar. Dəniz səviyyəsinin qalxması bu ölkələrin ərazilərinin kiçilməsi ilə nəticələnir. Bu ölkələrdə təbii fəlakətlər tez-tez təkrarlanır. Məsələn, Tahada vulkan püskürməsi və sunami baş verib. Bu hadisələr sahilyanı sərhədlərin geriyə çəkilməsini şərtləndirib və sahil mühafizəsi nöqteyi-nəzərindən vəziyyəti mürəkkəbləşdirib. Vəziyyəti şərh edən Tonqa Krallığının Baş naziri Savaleni Siaosi Ofa Ki Vahafolau bildirib: “Baham adalarının əvəzindən danışmaq istəməzdim, ancaq biz və hər halda Tuvalu da 99 faiz okeanla əhatə olunmuşuq, ərazimiz olduqca kiçikdir. Biz bəzən özümüzü böyük okean dövləti adlandırırıq. Ancaq reallıq ondan ibarətdir ki, bizim resursumuz və torpaq sahəmiz yoxdur, olan kiçik sahəni qorumaq üçün əlimizdən gələni etməliyik. Hər il Sakit Okean hövzəsi liderlərinin toplantısı təşkil olunur, 18 dövlətin rəhbərləri Liderlərin Forumu adlanan tədbirə toplaşırlar. Buraya Avstraliya və Yeni Zelandiya da daxildir. Bu il liderlər Tonqaya səfər edəcəklər”.




Kiçik ada dövlətlərinin üzləşdikləri belə vəziyyət birgə səylərlə zəruri tədbirlər görülməsinin vacibliyini önə çıxardıb. Qəbulda bununla bağlı təkliflər səsləndirilib. Bunlar əsasən üç geniş sahəni əhatə edir: İtki və Zərər Fondunun fəaliyyətə başlaması. İqlim maliyyələşməsi üzrə yeni kollektiv kəmiyyət hədəfinin müəyyən edilməsinin yekunlaşdırılması. İqlim dəyişmələrinin qarşısının alınması tədbirlərinin görülməsi, təmiz enerjiyə ədalətli və bərabər keçid prosesinin qəbul edilməsi.

Respublikamız qlobal iqlim dəyişmələrinə çox həssas yanaşma sərgiləyir. Əvvəla, Azərbaycan neft-qaz ölkəsi olsa da, qlobal iqlim dəyişmələrinə təsiri çox cüzidir. Digər tərəfdən, respublikamız qarşıya 2050-ci ilədək “sıfır emissiya” hədəfi qoyub. “Yaşıl enerji”yə keçid də ölkəmizin gündəliyinin prioritetləri sırasında yer alır. Azərbaycan, həmçinin kiçik ada dövlətlərinin problemlərinin həllinə dəstək verməyə hazırdır. “Hazırda biz COP29-a sədrlik edirik və buna praktiki nöqteyi-nəzərdən yanaşırıq. Bilirik ki, bir çox müzakirələr, söhbətlər aparılıb, lakin nəticə çox olmayıb. Bizim mövqeyimiz isə hər zaman çox praktiki və praqmatik olub. Biz nəticələrə nail olmaq istəyirik. Konfransda müzakirə olunacaq ən mühüm məsələ maliyyədir. Vəsaitlərin ayrılması üzərində fəal çalışırıq ki, həmin məsələlər həllini tapsın. Eyni zamanda, anlayırıq ki, iqlim dəyişmələri bəzi ölkələr üçün problemdir, lakin digərləri üçün mövcudluqla bağlı olan məsələdir. Biz bunu aydın şəkildə anlayırıq. Düşünürük ki, kiçik ada dövlətlərinə yardım bizim üçün mənəvi borcdur. Sizi əmin edə bilərik ki, kiçik ada dövlətləri məsələsi, onlara dəstəyin verilməsi, onların müdafiəsi müzakirələrin təməlində dayanacaq”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

***Mübariz ABDULLAYEV***

# Bakı-Sofiya: Sürətlə və uğurla inkişaf edən əlaqələr

Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasəti həm də çoxvektorlu olması ilə səciyyələnir. Ölkəmizin müsbət reallıqları dünyanın bütün regionlarında təqdir olunaraq böyük maraqla izlənilir. Təbii ki, respublikamızla qarşılıqlı maraqlar əsasında sıx münasibətlər quran dövlətlərin də sayı getdikcə artır. Avropa İttifaqı (Aİ) məkanında yerləşən Bolqarıstan da bu sırada yer alır. Bu günlərdə dost ölkənin Prezidenti Rumen Radev respublikamızda rəsmi səfərdə olub. Səfər çərçivəsində Prezident İlham Əliyev və Prezident Rumen Radev müxtəlif tədbirlərə qatılaraq ikitərəfli gündəliyin aktual məsələlərinin müzakirələrini aparıblar. Mətbuata verdiyi bəyanatında "Bolqarıstan və Azərbaycan 2015-ci ildən strateji tərəfdaşdırlar" deyən dövlətimizin başçısı vurğulayıb ki, bu illər ərzində əlaqələrimiz sürətlə və uğurla inkişaf edib.



## Fəal siyasi dialoqun yaratdığı imkanlar

Azərbaycanla Bolqarıstan arasında bugünkü yüksəksəviyyəli münasibətlərin formalaşmasına tarixdən gələn ənənələr öz təsirini göstərib. Azərbaycanın uzun illər ərzində tərkibində yaşadığı keçmiş Sovet İttifaqının dağılmasına qədər respublikamızla Bolqarıstan arasında elm, təhsil və mədəniyyət sahələrində sıx əlaqələr qurulmuşdu. Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra bu münasibətlərin genişlənməsi üçün yeni imkanlar açılıb.

Hazırda iki ölkə arasında siyasi dialoq kifayət qədər yüksək səviyyədədir. Azərbaycanla Bolqarıstan arasında diplomatik münasibətlərin qurulmasından 30 ildən çox vaxt ötüb. İki ölkə arasında diplomatik əlaqələr 5 iyun 1992-ci ildə qurulub. Bolqarıstanın Azərbaycanda səfirliyi 1999-cu ilin dekabr ayından, Azərbaycanın Bolqarıstandakı səfirliyi isə 2004-cü ilin aprelindən fəaliyyətə başlayıb. Ötən dövr ərzində iki ölkənin dövlət və hökumət başçılarının, parlament rəhbərlərinin, nazirlərin və digər vəzifəli şəxslərin qarşılıqlı səfərləri təşkil olunub. 1995-ci il 29-30 iyun tarixlərində Azərbaycanın dövlət başçısının Bolqarıstana ilk rəsmi səfəri baş tutub və bundan sonra belə yüksəksəviyyəli səfərlər intensiv hal alıb. Prezident İlham Əliyevin 2015-ci ilin mart ayında Bolqarıstana səfəri zamanı iki ölkə arasında "Strateji Tərəfdaşlıq haqqında Bəyannamə" imzalanıb. Bu sənədlə tərəflər qarşılıqlı maraq doğuran sahələrdə həm ikitərəfli formatda, həm də beynəlxalq platformalar çərçivəsində əməkdaşlığı dərinləşdirmək məqsədilə strateji tərəfdaşlığa daxil olduqlarını bəyan ediblər. Birgə Bəyannaməyə əsasən, xarici işlər nazirlərinin sədrliyi ilə Azərbaycan-Bolqarıstan Strateji Dialoqu təsis olunub. Strateji Dialoqun birinci iclası 2018-ci ildə, ikinci iclası isə 2022-ci ildə keçirilib.

İndiki mərhələdə dövlətlərarası münasibətlərin formalaşmasında liderlərin əlaqələri xüsusi rol oynayır. Bu baxımdan Azərbaycan və Bolqarıstan prezidentləri arasında yaranan dostluq münasibətləri dövlətlərimizin və cəmiyyətləriizin bir-birlərinə yaxınlaşmasına müsbət təsir göstərir. Təkcə son vaxtlarda dövlətlərimizin başçıları dörd dəfə görüşüblər. Qeyd olunduğu kimi, bu, təkcə vacib bir göstərici deyil, eyni zamanda ən yüksək səviyyədə olan siyasi dialoq üçün yaxşı zəmin yaradır. "Bizim Prezident Radevlə görüşlərimiz müntəzəm xarakter daşıyır. Keçən il həm Prezident Radev Azərbaycana, həm də mən Bolqarıstana səfərlər etmişdik. Eyni zamanda, keçən il biz Bolqarıstan-Serbiya sərhədində görüşmüşdük. Bir sözlə, fəal siyasi dialoq imkan verir ki, bütün istiqamətlər üzrə əlaqələrimiz genişlənsin, dərinləşsin və yeni nəticələr əldə edilsin", - deyə Prezident İlham Əliyev bildirib.

Öz növbəsində Bolqarıstan Prezidenti də mətbuata verdiyi bəyanatında ikitərəfli münasibətlərin inkişafında, ölkəsinin enerji təhlükəsizliyinin möhkəmlənməsində Azərbaycan Prezidentinin mühüm rol oynadığına xüsusi diqqət çəkib. "Bizi ənənəvi dostluq, anlaşma və qarşılıqlı etimad əlaqələri birləşdirir. Biz ən yüksək səviyyədə siyasi-strateji dialoqu aparırıq" deyən Rumen Radev vurğulayıb: "Mən Prezident Əliyevlə yeddi ildən artıqdır ki, tanışam və bu dövr ərzində bizim çoxsaylı müzakirələrimiz olub. Mən onun cəsarətli baxışına şahidəm, ona çox gözəl bələdəm. O, Azərbaycanı dinamik şəkildə inkişaf etdirmək əzmindədir. Yaşıl enerji layihələri bunun bariz nümunəsidir. Bununla yanaşı, onun fəal diplomatiyası da imkan verdi ki, bu gün biz beynəlxalq səviyyədə sülh və təhlükəsizlik, sabitlik haqqında danışaq. Ona görə mənə heç də təəccüblü gəlmədi ki, Azərbaycan COP29 kimi olduqca mötəbər bir tədbirə ev sahibi seçildi. Biz Bolqarıstan olaraq o zaman Azərbaycanın namizədliyini qəti şəkildə dəstəklədik. Bu gün mən Prezident Əliyevə məlumat verdim ki, biz də öz növbəmizdə institusional və ekspert səviyyəsində COP29-a dəstək verməyə hazırıq".

## Heydər Əliyev Fondunun töhfələri

Bu günlərdə yaranmasının 20 illiyi qeyd olunan Heydər Əliyev Fondu ölkəmizdə dövlət-cəmiyyət tərəfdaşlığının gözəl nümunəsinə çevrilib. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Fond bütün istiqamətlərdə dövlət siyasətinə güclü dəstək verir. Eyni zamanda, Fondun respublikamızda sosial sferanın, milli mədəniyyətimizin, təhsilin, səhiyyənin inkişafı ilə bağlı irəli sürdüyü təşəbbüslər dövlət siyasətində nəzərə alınır. Belə koordinasiyalı fəaliyyət son nəticədə Azərbaycanın tərəqqisinə güclü impuls verir.

O cümlədən Fond ölkəmizin beynəlxalq səviyyədə imicinin yüksəlməsinə, xarici dövlətlərlə ünsiyyət bağlarının möhkəmlənməsinə, Azərbaycan həqiqətlərinin dünyada tanıdılmasına da davamlı töhfələr verir. Bu baxımdan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun dost Bolqarıstanda reallaşdırdığı layihələr də böyük əhəmiyyət daşıyır. Fond tərəfindən Bolqarıstanın Veliko-Tırnovo şəhərindəki "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası həyata keçirilib. Qoruğun bərpadan sonra açılışı 23 sentyabr 2016-cı il tarixində Bolqarıstanın Baş nazirinin, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın və Fondun vitse-prezidenti Leyla Əliyevanın iştirakı ilə baş tutub. Yaşıl təpələr arasında yerləşən Veliko Tırnovo şəhəri XII-XIV əsrlərdə Avropanın aparıcı mədəni, tarixi, ictimai-siyasi mərkəzlərindən biri olub və özünün bənzərsiz təbiəti, gözəlliyi, habelə məhz memarlıq xüsusiyyətləri, müdafiə təyinatlı qala divarları ilə fərqlənib. "Trapezitsa" qoruğu bütün bolqar xalqının milli sərvətidir, eyni zamanda, o, Ümumavropa mədəni irsidir. Dünya əhəmiyyətli bu tarixi-mədəni abidəyə ikinci həyat bəxş etməklə Heydər Əliyev Fondu bir tərəfdən Azərbaycanın xoş məramını, bəşəriyyətin mədəni irsinə münasibətini nümayiş etdirib, eyni zamanda, iki ölkə arasında qarşılıqlı hörmət və inam mühitinin möhkəmlənməsinə töhfə vermiş olub. Qeyd edək ki, "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiya və bərpası, texniki infrastrukturunun inşası və təmiri haqqında" saziş 2015-ci il mayın 27-də Sofiyada imzalanıb. Sazişə əsasən, Heydər Əliyev Fondu tarixi abidədə 158 metr uzunluğunda qərb divarının konservasiyası və bərpasını, 880 metr uzunluğunda turizm xiyabanının salınmasını, mədəni irs mərkəzinin yaradılmasını, ərazidəki orta əsrlərə aid 3 kilsənin təmiri və konservasiyasını həyata keçirib. Təxminən 10 ay ərzində aparılan bütün bərpa əməliyyatları ən yüksək səviyyədə tamamlanıb. "Biz cənab Prezidentin Bolqarıstana səfəri çərçivəsində Azərbaycanın qədim mədəniyyət paytaxtı Şuşa və Veliko-Tırnovo ilə əlaqələr qurduq. Mən Sizə təşəkkür edirəm ki, Sizin dəstəyinizlə bir neçə gözəl layihə həyata keçirilib. Bu işdə Heydər Əliyev Fondunun da fəal rolu olub. Bu Fond bizim ölkədə tarixi-mədəni abidələrin qorunması layihələrini həyata keçirib", - deyə Bolqarıstan Prezidenti Rumen Radev mətbuata verdiyi bəyanatında minnətdarlıq hissi ilə vurğulayıb.

## Hüquq-müqavilə bazasının möhkəmləndirilməsi

Azərbaycan-Bolqarıstan münasibətlərinin hüquq-müqavilə bazası davamlı olaraq möhkəmləndirilir. İndiyədək iki ölkə arasında 70-dən çox sənəd imzalanıb. Bolqarıstan Prezidentinin ölkəmizə son səfəri çərçivəsində imzalanan yeni sənədlərlə bu siyahı daha da genişlənib. O cümlədən səfər çərçivəsində

- Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev "Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında strateji tərəfdaşlığın gücləndirilməsi haqqında Birgə Bəyannamə"ni,

- Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və "Bulgaria Air" aviaşirkətinin İdarə Heyətinin üzvü Xristo Todorov "Azərbayca n Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti və "Bulgaria Air" Səhmdar Cəmiyyəti arasında kod paylaşma Sazişi"ni,

- Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov və Bolqarıstan Respublikasının energetika nazirinin vəzifəsini icra edən Vladimir Malinov "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Bolqarıstan Respublikasının İnnovasiya və İnkişaf Nazirliyi arasında texnoloji innovasiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu,

- Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Asarel Investment" şirkətinin müşahidə şurasının sədri Dimitar Tsosorkov "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "Asarel Investment" arasında Anlaşma Memorandumu"nu imzalayıblar.

İmzalanan sənədlərdən də göründüyü kimi, hazırda qarşılıqlı münasibətlər o səviyyəyə yüksəlib ki, iki dost ölkə strateji tərəfdaşlığın çərçivələrini daha da genişləndirmək niyyətindədirlər. Eyni zamanda, imzalanan sənədlər bir sıra istiqamətlər üzrə daha geniş əməkdaşlıq perspektivləri açır.

***Mübariz ABDULLAYEV***

# Türk dünyasının birliyinə doğru daha bir addım...

Son vaxtlarda Türkdilli ölkələr arasında əlaqələrin genişlənməsi məmnunluq doğurur. Qarşılıqlı inteqrasiya həm siyasi dialoqu, həm də iqtisadi və humanitar sferaları əhatə edir. Eyni zamanda, beynəlxalq təsisata çevrilən Türk Dövlətləri Təşkilatının (TDT) sıraları genişlənir. Artıq müstəqillik yolunda irəliləyən Şimali Kipr Türk Respublikası da (ŞKTR) təşkilata müşahidəçi statusunda qəbul olunub. Prezident İlham Əliyev isə ŞKTR-nin Türk Dövlətləri Təşkilatında daha geniş təmsilçiliyə malik olması təşəbbüsündən çıxış edib. Bütövlükdə, Azərbaycan Şimali Kipr Türk Respublikası ilə çoxvektorlu əməkdaşlığı daha da genişləndirmək niyyətindədir. Bu günlərdə Milli Məclisin bir qrup deputatı dost ölkəyə növbəti səfərə gedib.

## Azərbaycanın qətiyyətli mövqeyi

Hazırda dünyada açıq şəkildə qütbləşmə meylləri müşahidə edilməkdədir. Xüsusilə də İslam dünyasına hücumlar artıb. Selektiv yanaşmaların önə çıxdığı belə bir şəraitdə Azərbaycan beynəlxalq münasibətlər sistemində öz yerini dəyiq müəyyənləşdirib. Belə ki, bundan sonra respublikamız müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığı davam etdirməklə yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsində əlaqələrin möhkəmlənməsinə daha çox səy göstərəcək. Qeyd edək ki, Türk birliyinin ideyadan reallığa çevrilməsində Azərbaycan Prezidenti İlham Əliyevin müstəsna xidmətləri olub. TDT-nin yaranmasına aparan yol məhz Naxçıvandan başlayıb. 2009-cu ildə Naxçıvanda keçirilmiş Zirvə Görüşündə Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə "Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan Sazişi"i imzalanıb və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının yaradılması üzrə razılığa gəlinib.

İndiki mərhələdə isə Azərbaycan Türk Dövlətləri Təşkilatının daha da möhkəmləndirilməsi mövqeyindən çıxış edir. Dünyada Türk dövlətləri böyük coğrafiyadır, böyük iqtisadiyyatdır, zəngin təbii sərvətlərdir, nəqliyyat yollarıdır, artan əhalidir. Ayrı-ayrı beynəlxalq təşkilatlar əksər hallarda keçici maraqlar əsasında qurulur. Buna görə də onlar, necə deyərlər, səhnədən tez çıxırlar. Türk dövlətlərinin birliyi isə soy-kökdən gəlir ki, bu amil də onlar arasında dostluğu əbədi edir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Türk dünyası bizim ailəmizdir. Hazırda ölkəmizin bütün Türkdilli dövlətlərlə çox yüksək dinamikaya malik ikitərəfli əlaqələri var. Respublikamızın son illərdə münasibətlərini genişləndirdiyi Türk dövlətlərindən biri də Şimali Kipr Türk Cümhuriyyətidir. İkitərəfli əlaqələr yeni bağlarla möhkəmləndirilir.

Azərbaycanla ŞKTR arasında müxtəlif istiqamətlərdə əlaqələr artan dinamikaya malik olsa da, hələlik hər iki tərəfin arzuladığı səviyyəyə çatmayıb. Potensial daha böyükdür. Ölkəmizlə Şimali Kipr arasında turizm və tələbə mübadiləsi tərəfdaşlıq əlaqələrində əsas yer tutur. Uzun illər ərzində Azərbaycandan minlərlə tələbə Şimali Kiprdə təhsil alıb. Hazırda Şimali Kiprdə 500-ə yaxın azərbaycanlı tələbə təhsil alır və çoxlu sayda da azərbaycanlı müəllim işləyir.

Turizm sektoru da ikitərəfli münasibətlərdə ən cəlbedici istiqamətlərdən biri kimi dəyərləndirilir. Eyni zamanda, kənd təsərrüfatında əməkdaşlıq potensialı var. Aqrar sektor məhsullarının qarşılıqlı ticarətini təşkil etmək mümkündür. Ekspertlər bildirirlər ki, zamanla müxtəlif sahələrdə müştərək işlər görülə bilər.




## Çətin müstəqillik yolunda

Uzun illərdir ki, Şimali Kipr Türk Respublikası çətin müstəqillik yolunda irəliləyir. ŞKTR Kipr adasının şimalında yerləşən de-fakto dövlətdir. Hələlik bu dövlət yalnız Türkiyə tərəfindən tanınır. Şimali Kipr şimal-şərqdə Karpaz yarımadasından Gözəlyurd körfəzinə, qərbdə Qoruçam burnundan Ərənköyə (anklav) qədər uzanır. Cənubda isə Birləşmiş Millətlər Təşkilatının nəzarəti altındakı təhlükəsizlik xətti Şimali Kiprlə adanın digər hissəsi arasında uzanır. Ümumi sahəsi 3,355 kvadratkilometrdir. ŞKTR Kipr adasının 36,4 faizini tutur.

Hazırda dünyada yaşanan ayrı-seçkiçilik, ikili standartlar siyasətinin təzahürlərini həmçinin Şimali Kiprdə yaşayan türk əhali də öz üzərində hiss edib. Diskriminasiya siyasəti ilə barışmayan əhali ötən əsrin yetmişinci illərində müstəqillik uğrunda dönməz mübarizəyə başlayıb. Məlumat üçün bildirək ki, 1974-cü ildə başlanan Kipr hərəkatı nəticəsində 1976-cı ildə Kipr Türk Federal Dövləti yaradılıb. 1983-cü ildə isə Şimali Kipr Türk Respublikası öz müstəqilliyini bəyan edib.

## ŞKTR ilə əlaqələrin möhkəmlənməsinə növbəti töhfə

Milli Məclisin deputatlarının ŞKTR-na budəfəki səfərlərinin gündəliyi kifayət qədər geniş olub. Mayın 13-də paytaxt Lefkoşada Türkiyə, Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti parlamentlərinin deputatlarının üçtərəfli işçi görüşünün keçirilməsini isə Türk birliyinin möhkəmləndirilməsi istiqamətində atılan daha bir önəmli addım kimi dəyərləndirmək mümkündür.

Müzakirələr zamanı ŞKTC parlamentinin spikeri Zorlu Töre üç ölkənin qarşılıqlı fəaliyyətinin daha da dərinləşdirilməsinə çağırıb. Onun sözlərinə görə, Azərbaycan və digər Türk dövlətləri ilə əlaqələr Şimali Kipr Türk Cümhuriyyəti üçün son dərəcə əhəmiyyətlidir."ŞKTC-nin tanınması ilə bağlı gələcək səylər üçün möhkəm baza yaratmaq zəruridir", - deyə Z.Töre vurğulayıb.

Milli Məclisin deputatı, Azərbaycan-Türkiyə parlamentlərarası dostluq qrupunun sədri Əhliman Əmiraslanov çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin sözlərindən sitat gətirərək deyib: "Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz - Türk dünyasıdır... Bugünkü görüş Azərbaycan Prezidentinin sözlərinin gerçəkləşməsinə verilən növbəti töhfədir".

Deputat ümidvar olduğunu bildirib ki, Azərbaycan-ŞKTC parlamentlərarası əlaqələr üzrə işçi qrupunun yaradılmasından sonra digər Türk dövlətləri ilə də analoji qruplar təsis ediləcək.

Deputat Cavanşir Feyziyev də Lefkoşa ilə əməkdaşlığın inkişafı üzrə əməli addımların zəruriliyini vurğulayıb. "Ümid edirəm ki, hər bir yeni görüşümüz ŞKTC-nin Türkiyə və Azərbaycanla əməkdaşlığının dərinləşməsində növbəti addımların sübutu olacaq", - deyə o qeyd edib.

Səfər çərçivəsində həmçinin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar Şimali Kipr Türk Cümhuriyyəti-Azərbaycan, Türkiyə-Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyəti-Türkiyə parlamentlərarası işçi qruplarının rəhbərlərini və üzvlərini qəbul edib. Prezident Ersin Tatar çıxışında üç parlamentin dostluq qruplarının Şimali Kipr Türk Cümhuriyyətində bir araya gəlməsini tarixi hadisə adlandıraraq işçi qrupların üzvləri ilə görüşdən məmnunluq duyduğunu, ölkəsinin mübarizəsində "Tək millət, üç dövlət" arzusu ilə yaşadıqlarını vurğulayıb.

***Mübariz FEYİZLİ***

# Avropa Prlamentinin bəzi üzvləri qeyri-obyektivliyi qəbul etmirlər

## Xaviyer Nart: Qərbi azərbaycanlıların yaşadıqları bəlalar tarixi faciədir

Azərbaycanın xarici siyasətində beynəlxalq təşkilatlarla fəal əməkdaşlıq mühüm yer tutur. Ölkəmiz bir sıra təşkilatların aktiv üzvüdür və həmin qurumların fəaliyyətinə öz töhfələrini verir. Amma elə təşkilatlar var ki, qarşılıqlı hörmətə, tərəfdaşlığa yox, qərəz və ikili standartlara xidmət edir. Belə təşkilatlar sırasında Avropa Parlamenti "xüsusi" yer tutur. Müstəqillik dövrümüzdə təşkilat dəfələrlə ölkəmizə qarşı qərəzli sənədlər qəbul edib. Ermənistanın işğalçılıq siyasətinin davam etdiyi illərdə Avropa Parlamenti təcavüzkarın vəkili və ruporu qismində özünü təsdiqləyib. Təşkilat torpaqlarımızın Ermənistan tərəfindən 30 illik işğalına son qoyulması ilə nəticələnmiş İkinci Qarabağ müharibəsindən sonra ölkəmizə qarşı daha da aqressivləşib. Təsadüfi deyil ki, 2021-ci ildən bəri Avropa Parlamenti müxtəlif bəhanələr altında Azərbaycana qarşı 8 qətnamə qəbul edib.

### Milli Məclisdə və Qərbi Azərbaycan İcmasında görüş

Bütün bunlara baxmayaraq, Azərbaycan təşkilatın ədalətsiz mövqeyi ilə bağlı prinsipial yanaşmasını hər zaman nümayiş etdirir. Eləcə də Avropa Parlamentində sağlam, obyektiv düşüncəli deputatlarla əməkdaşlıq edir. Avropa Parlamentinin nümayəndəsi Xaviyer Nartın ölkəmizə səfəri də məhz bu yanaşmanın göstəricisidir. Qeyd edək ki, qonaq səfər zamanı bir sıra görüşlər keçirib. Milli Məclisin Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri Tural Gəncəliyev və nümayəndə heyətinin üzvü Sevil Mikayılova mayın 13-də Avropa Parlamentinin deputatı Xaviyer Nart ilə görüşüblər. Tərəflər arasında Cənubi Qafqazda və Avropa məkanında gedən proseslər, regional və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində parlament diplomatiyasının rolu və əhəmiyyəti barədə söhbət aparılıb. Söhbətdə Azərbaycanla Ermənistan arasında delimitasiya sahəsində görülən işlər, bölgədə sülhün bərqərar olması üçün aparılan danışıqlar barədə fikir mübadiləsi aparılıb, eləcə də Qərb dairələrinin prosesə ikili standartlardan yanaşmasının regionda sülh prosesinə vurduğu ciddi ziyan qeyd olunub.

Avropa Parlamentinin üzvü Xaviyer Nart Qərbi Azərbaycan İcmasında da olub, İcmanın İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli ilə görüşüb. Görüşdə qonağa Qərbi azərbaycanlıların ötən 200 il ərzində üzləşdiyi soyqırımlar və deportasiyalar barədə məlumat verilib, dağıdılan maddi-mədəni irsimizdən bəhs edilib. Xaviyer Nart öz növbəsində Qərbi azərbaycanlıların yaşadıqları bəlaları tarixi faciə adlandıraraq həqiqətlərimiz barədə daha çox məlumat istəməklə öyrəndiklərini avropalı həmkarlarına çatdıracağını bildirib. Qonağa Qərbi Azərbaycan İcmasının bir neçə dildə nəşr edilmiş Qayıdış Konsepsiyası da təqdim olunub.



Xaviyer Nart ölkəmizə səfəri çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsindəki keçmiş məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı "Zəngilan" şəhərciyində də olub. Milli Məclisin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin və Zəngilan Rayon İcra Hakimiyyətinin nümayəndələrinin müşayiət etdiyi qonaq şəhərcikdə sakinlərlə görüşüb, onların yaşayış şəraiti ilə maraqlanıb. Ermənistanın işğalçılıq siyasətinin ağır nəticələri, məcburi köçkünlərin üzləşdiyi çətinliklər, onlara göstərilən dövlət qayğısı haqqında avropalı deputata ətraflı məlumat verilib. Avropalı qonaq Zəngilan rayon 33 nömrəli tam orta məktəbin yuxarı sinif şagirdləri ilə görüşüb, onlara özünün jurnalist və siyasi fəaliyyəti haqqında danışıb, təhsil və fərdi inkişafla bağlı tövsiyələr verib. "Şəfəq" uşaq bağçasında isə məcburi köçkün ailələrdən olan balacalar qonağa nağıl qəhrəmanları haqqında yığcam səhnəcik təqdim ediblər. Xaviyer Nart 44 günlük Vətən müharibəsinin ən gənc şəhidlərindən olan İsmayıl Davud oğlu Mehdiyevin ailə üzvləri ilə də görüşüb.

### Avropa Parlamentində Xocalı soyqırımına dair bəyanatın müəllifi...

Jurnalistlərə açıqlamasında Azərbaycana ilk dəfədir səfər etdiyini deyən qonaq bildirib ki, səfərin məqsədi ölkəmizi yaxından tanımaqdır: "Ölkəniz haqqında təsəvvürüm o qədər geniş olmasa da, bilirəm ki, Azərbaycan xalqı çox çətin dövrlər yaşayıb. Ermənistan tərəfindən ərazilərin işğalı nəticəsində evlərindən didərgin düşmüş insanların çəkdiyi əziyyətlər məni çox kədərləndirirdi.



Doğma yurdlarından qovulmuş azərbaycanlıların geri qayıdışı artıq başlayıb və ümid edirəm ki, keçmiş məcburi köçkünlərin hamısı tezliklə öz evlərinə qayıdacaqlar. Hər bir ölkənin ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmətlə yanaşılmalıdır. Bu, bir normadır". Avropalı deputatın proqramına işğaldan azad edilmiş ərazilərdə yaradılan bərpa-quruculuq işləri ilə tanış olmaq üçün Şuşaya səfər etmək də daxildir.

Qeyd edək ki, Xaviyer Nart ispandır və İspaniyanın Baş naziri Pedro Sançesin rəhbərlik etdiyi Sosialist Partiyasının üzvüdür. Avropa Parlamentinin üzvü kimi o, hələ 2018-ci ildə təşkilatda Xocalı soyqırımına dair bəyanatın müəllifi kimi çıxış edib.

Xatırladaq ki, aprelin sonunda Avropa Parlamentinin daha bir üzvü- təşkilatın Nəqliyyat və turizm komitəsinin üzvü Tomaş Piotr Poreba da ölkəmizə səfər etmişdi. O, Avropa Parlamentinin ölkəmizə qarşı qərəzli və ikili standartları özündə ehtiva edən mövqeyini pisləyərək bu mövqeyi ədalətsiz və məntiqə sığmayan addım kimi dəyərləndirmişdi.

Bütün bunlar isə onu göstərir ki, təşkilat daxilində obyektiv mövqe tutan deputatlar da var. Belə şəxslər haqlı olaraq digərləri ilə fikir ayrılığındadır və qeyri-obyektiv fəaliyyəti qəbul etmirlər. Amma Avropa Parlamentində obyektiv deputatların sayı çox deyil. Çünki təşkilat erməni lobbisinin əlində alətə çevrilib. Təsadüfi deyil ki, bu qurum həm də siyasi korrupsiyanın yuvası hesab edilir. Bütün bunlara baxmayaraq, Avropa Parlamentində sağlam düşüncəli və obyektiv deputatlarla əlaqələrin genişləndirilməsi milli maraqlarımıza uyğundur.

*Nardar BAYRAMLI*

# İxracın yeni körpüsü

## Çinin daha bir şəhərində "Azərbaycan Ticarət Evi" açılır

Azərbaycan-Çin iqtisadi əməkdaşlığının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi, Azərbaycan məhsullarının Çin bazarlarına çıxarılması, ixracın və istehsalın stimullaşdırılması, həmçinin iki ölkənin iş adamları arasında əlaqələrin inkişafı son illərdə ölkəmizin iqtisadi siyasətində əsas prioritetlərdən birini təşkil etməkdədir. İqtisadi əlaqələrin hərarətinə təkan verən amillərdən biri də Çində fəaliyyət göstərən "Azərbaycan Ticarət Evləri"dir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın "Ticarət Evləri", açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Yaxın günlərdə açılışı baş tutacaq Çinin Nankin şəhərində yeni "Azərbaycan Ticarət Evi" ölkəmizdə istehsal edilən qida və içki sənayesinə aid 50-yə yaxın məhsulun nümayiş olunması, milli ixrac qabiliyyətinin imkanlarının təqdim olunması baxımından mühüm əhəmiyyət kəsb edəcək. Bu Evlərdə diqqəti cəlb edən "Made in Azerbaijan" rəflərinin təşkili yerli qeyri-neft məhsullarının vahid brend ilə dünyada tanıdılması və təşviq edilməsi baxımından ən təsirli ixrac ideyası sayıla bilər.

Qeyd edək ki, "Ticarət Evləri" Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Həmçinin "Ticarət Evləri"nin sayının artması Azərbaycan və Çin arasında qarşılıqlı ticarət mübadiləsinin də həcminin artmasını təşviq edəcək, xüsusilə də ölkəmizdən Çinə ixracın həcmini yüksəldəcək. Qeyd edək ki, hazırda iki ölkə arasında qarşılıqlı mal dövriyyəsinin həcmi təxminən 3,1 milyard dollar təşkil edir, Azərbaycanın bu ölkəyə ixracının həcmi 100 milyona dollara bərabərdir. İxracda əsas məhsullar qida, təbii mineral sular, şərab və digər spirtli içkilər, fındıq və qurudulmuş meyvə məhsullarıdır.

Artıq bir neçə ildir ki, iqtisadi ənənəyə çevrilmiş Çinin Urumçi şəhərinə təşkil olunan Azərbaycanın İxrac missiyaları da iki ölkənin biznes icması arasında təmasların genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. İxrac missiyaları yeni bazarlara çıxış imkanlarını aşkar etmək, mövcud bazarlarda yerli məhsulların mövqeyini möhkəmlətmək və bu bazarlara yeni məhsullar təqdim etmək məqsədi ilə təşkil olunan dəstək



tədbiridir. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) və Azərbaycanın Çindəki Ticarət nümayəndəliyinin təşkilatçılığı ilə keçirilən bu cür tədbirlər Azərbaycan məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsində əsas vasitələrdən biridir.

Azərbaycan sahibkarları davamlı olaraq Çində təşkil olunan ənənəvi nəhəng "Avrasiya" sərgisində iştirak edirlər. Son 5 ildə "Made in Azerbaijan" vahid ölkə stendi ilə nümayiş olunan malların həm coğrafiyası artır, həm də "Ticarət Evləri"ndə təmsi olunan sahibkarların sırası genişlənir.

Hazırda Çin Azərbaycanın 5 böyük ticarət tərəfdaşından biridir, 4-cü yerdə qərarlaşır. İdxalda isə 3-cü yeri tutur. Çin həm də ölkəmizdə potensial investorlardan hesab edilir. İndiyə qədər 1,5 milyard dollara qədər sərmayə yatırılıb. Öz növbəsində, Azərbaycan bu Asiya-Sakit region ölkəsinə çoxhəcmli investisiya qoyuluşlarında xüsusi paya malikdir, investisiyaların həcmi 1,7 milyard dolları ötməkdədir.

Hazırda Azərbaycanda hazırlanmış yeni ixrac xəritəsi sayılan Milli ixrac strategiyasının əsas hədəflərdindən biri Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlb olunması, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, yeni bazarların araşdırılması, ixracın stimullaşdırılması və təşviqi istiqamətində sistemli və kompleks tədbirlər, həmçinin yeni xarici ölkə bazarlarının tapılması və ixrac istiqamətlərinin coğrafi hüdudlarının genişləndirilməsindən ibarətdir. Hazırda Belarus, Ukrayna, Polşa, Birləşmiş Ərəb Əmirlikləri, Latviya, Çin, Qazaxıstanda "Azərbaycan Ticarət Evləri" fəaliyyət göstərir.

Həmin prioritetlərdən biri də xarici ölkələrdə "Azərbaycan Ticarət Evi"nin sayının artırılmasıdır ki, bu sırada əsas ölkələrdən biri kimi Çin dayanır.

"Milli ixrac strategiyası" 15-dən çox hədəf bazarını və 120 çeşid ixrac məhsulunu müəyyən edir. Strategiyaya əsasən, Azərbaycanın qeyri-neft ixracını 2025-ci ilədək ötən illə müqayisədə iki dəfə artırmaq və 3,7 milyard dollara çatdırmaq planlaşdırılır. Adambaşına düşən qeyri-neft ixracının 2025-ci ildə 450 dollar hədəfinə çatdırılması nəzərdə tutulur. Həmçinin xarici ölkələrə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan sahibkarların fəaliyyətinin daha da təşviq edilməsi, "Made in Azerbaijan" və "İnvest in Azerbaijan" ixrac portalları üzrə sifarişlərin daha qlobal ticarət şəbəkələrinə inteqrasiyasının təkmilləşdirilməsi, iri investorların Azərbaycana gətirilməsi və qeyri-neft istehsalı sahələrinə cəlbi məqsədilə yeni qitisadi alətlərin tətbiqi strategiya sənədinin əsas prioritetləri sırasında yer alır.

Bu baxımdan "Milli ixrac strategiyası" Azərbaycan-Çin münasibətlərinin daha da inkişafına təkan verəcək, Çinin digər iri şəhərlərində də "Azərbaycan Ticarət Evləri"nin fəaliyyətə başlamasını təşviq edəcəkdir.

Beləliklə, Çin və Azərbaycan arasında iqtisadi əlaqələlərin ən məhsuldar platformasına çevrilmiş "Ticarət Evləri" vahid ixrac ideyasına - "Made in Azerbaijan" brendinin dünya bazarlarında daha geniş formatda tanıdılmasını təmin etməyə xidmət edir.

*E.CƏFƏRLİ*

# 15 il sonra ilk dəfə...

## Milli QHT Forumunun X qurultayında yeni tərkib formalaşdı!

Ötən gün Azərbaycan Milli QHT Forumunun X qurultayı keçirilib. Qurultayda əvvəlcə Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, suverenliyi uğrunda mübarizədə canlarını qurban verən şəhidlərin əziz xatirələri bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Qurultayda Forumun Nizamnaməsinə köklü dəyişikliklər edilib, "prezident" postu ləğv olunub, əsas səlahiyyətlər İdarə Heyətinə ötürülüb. Köhnə rəhbərlikdən heç biri namizədliyini irəli sürməyib. Bundan başqa, İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 4 ildən 5 ilə qaldırılıb. Tədbirdə köhnə tərkib tam heyətlə buraxılıb və yeni tərkib formalaşıb.




Qurultayda son 15 ildə ilk dəfə olaraq rəhbər şəxs dəyişdirilib, 5 nəfərdən ibarət İdarə Heyəti yaradılıb. İdarə Heyətinin sədri postuna "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin rəhbəri Ramil İskəndərli seçilib. O, 2023-cü ilin iyul ayından Dövlət Miqrasiya Xidməti yanında İctimai Şuranın sədridir. Beynəlxalq hüquq və insan hüquqları sahəsində bir sıra elmi məqalələrin müəllifidir. Ramil İsgəndərli etimada görə qurultay iştirakçılarına təşəkkür edib, gözləntiləri doğrultmaq üçün fəal iş aparacaqlarını bildirib.

İdarə Heyətinin digər üzvləri də peşəkar QHT təmsilçilərindən formalaşıb. Onlar aşağıdakılardır:

Pərvanə Vəliyeva - "Sağlamlığa Xidmət" İctimai Birliyinin icraçı direktoru, Azər Allahverənov - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri, Xatirə Vəliyeva - "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyinin sədri, Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri.

**Çevik idarəçilik modelinə keçid**

Qurultayda çıxış edən Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev tədbir iştirakçılarının səsverməsi ilə yeni formalaşmış İdarə Heyətinə fəaliyyətində uğurlar arzulayıb: "Azərbaycan Milli QHT Forumu illərdir arzusunda olduğu islahatlar mərhələsinə qədəm qoyur, estafeti bir nəsil digərinə yüksək ləyaqətlə ötürür. Bu, Azərbaycan vətəndaş cəmiyyətində formalaşmış nümunəvi ictimai dəyərlərdən, yetkin mədəniyyətdən xəbər verir. Forumun Nizamnaməsində aparılan sistem xarakterli dəyişikliklər qurumun müasir dövrün tələblərinə uyğun çevik idarəçilik modelinə keçməsinə işarədir. Qarşıdakı müddətdə bunun müsbət praktiki nəticələrini görəcəyimizə ümid edirik. Biz yeni İdarə Heyətini hadisələrin arxasınca gedən deyil, əksinə, müsbət təşəbbüslərin bayraqdarı kimi təsəvvür edirik. Yeni İdarə Heyətindən QHT-lərin ictimai vəkilliyi işində, ictimai maraqların müdafiəsində, o cümlədən cəmiyyətdə kök salmış mənfi stereotiplərin təmizlənməsi işində yüksək fəallıq gözləyirik".

PA rəsmisi bildirib ki, qarşıdakı dövrdə QHT sektorunda islahatlar daha da dərinləşdiriləcək. Bu islahatlar QHT-lərin sağlam, münbit şəraitdə inkişafı, şəffaf, hesabatlı fəaliyyəti üçün meydanı daha da genişləndirəcək.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva Rauf Zeyniyə fəaliyyəti dövründə Agentliklə sıx əməkdaşlığa görə təşəkkürünü bildirib və onu diplomla təltif edib. A.Əliyeva yeni heyətə təbriklərini çatdırıb.

*Yeganə BAYRAMOVA*

# Qanunsuz ağac kəsimi, yoxsa məmurların "yaşıl soyqırımı"...

Qusar rayonunda ağacların qanunsuz kəsilməsi barədə daxil olmuş məlumatlar əsasında Baş Prokurorluq tərəfindən aparılmış araşdırmalar nəticəsində təbiətə vurulmuş zərərlə bağlı cinayət işi başlanılıb. Belə ki, araşdırmalara əsasən, vəzifəli şəxslər tərəfindən səlahiyyətlərindən sui-istifadə edilərək çoxillik ağaclarla əhatə olunmuş meşə fonduna aid 22,3 hektar torpaq sahəsinin təyinatının əsassız şəkildə dəyişdirilib yaşayış məntəqələrinin torpaqları kimi Qusar şəhər bələdiyyəsinin balansına verilməsinə, meşə fondunun ziyan və itkisinin natamam və qeyri-dəqiq hesablanmasına, vəzifə saxtakarlığına yol verilərək torpaq sahəsinin qanunsuz olaraq müxtəlif vətəndaşlara satılmasına, habelə torpaq sahələrində müxtəlif diametrli və cinsli ağacların qanunsuz kəsilməsi nəticəsində təbiətə külli miqdarda ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib. Toplanmış material əsasında Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) və 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 313 (vəzifə saxtakarlığı) və 314.2-ci (səhlənkarlıq ağır nəticələrə səbəb olduqda) maddələri ilə cinayət işi başlanıb.

Bu hal ətraf mühitə vurulan zərər olmaqla yanaşı, olduqca ağır bir cinayət hadisəsinin baş verməsinin göstəricisidir. Azərbaycanın ekoloji siyasətinə, təmiz ətraf mühit quruculuğu proqramına qarşı yönəlmiş sui-qəsd, "yaşıl cinayətdir". Azərbaycan beynəlxalq ekoloji ailənin etibarlı və etimadlı üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir, ətraf mühitin qorunmasına milyonlarla dollar sərmayə yatırır, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "təmiz ətraf mühit və yaşıl artım ölkəsi" hədəfidir. Eləcə də digər mühüm dövlət proqramları çərçivəsində ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması əsas milli prioritet elan edilib və bu istiqamətdə aramsız sürətli işlər həyata keçirilir.

Azərbaycan Prezidenti, Birinci Vitse-Prezident, Heydər Əliyev Fondu ölkənin ərazilərində yorulmadan yaşıllıqlar və yeni meşə zolaqları salır, ölkənin yaşıllıqlar zolağını genişləndirir, təbiətə xüsusi diqqət



və qayğı göstərir, dövlət idarələrini bu nəcib təşəbbüsə səfərbər edir və davamlı xarakter daşıyan iməciliklər keçirilir. Bütün bu kimi təqdirolunası və qürurverici hadisələrin fonunda hansısa harınlamış və məsuliyyət hissini itirmiş məmur dövlətin bu ekoloji strateji maraqlarına zərbə vurur. Bu, açıq-aşkar "yaşıl soyqırımdır".

Meşə ehtiyatları ekoloji tarazlığın bərpasında ən təminatlı resursdur, ekosistemin sütunlarından biridir. 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib və həmin il çərçivəsində kompeks dövlət tədbirlərindən biri kimi yaşıl ehtiyatların artırılması, o cümlədən meşə fondunun genişləndirilməsi ilə bağlı tədbirlər planı müəyyən edilib və icra oluunmaqdadır. Azərbaycan dövlətinin ekoloji siyasətində ətraf mühitə həssas qayğının milli prioritetlərdən birinə çevrildiyi vaxtda Qusardakı bu cür bağışlanmaz hadisənin baş verməsi ümumdövlət siyasətinə qarşı çıxmaq deməkdir.

Azərbaycan COP29-a sədrliyi öz üzərinə götürmüş və böyük bir qlobal məsuliyyətin altına girmiş ölkədir, beynəlxalq ictimaiyyətin diqqəti hazırda ölkəmizin üzərinə cəmləşib. Azərbaycanın il başlayanadan başlatdığı "yaşıl layihələr" dünya ətraf mühit icması tərəfindən hörmət və etimadla qarşılanır, ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunmasında qətiyyətini və iradəsini bir çox ölkələr nümunə hesab edir. Belə bir uğurgətirici siyasətin davam etdiyi bir şəraitdə hansısa məmurun bu özbaşınalığı dövlətin "yaşıl həmrəylik" siyasətinə zərbə vurur və kənardakılara ölkəmiz haqqında mənfi rəy formalaşdırır. Hansısa məmur tayfasının öz şəxsi mənfəəti və varlanmaq ehtirası dövlətin ekoloji siyasətlə bağlı ortaya qoyduğu sarsılmaz iradəsinin əksinə yönələn təxribat kimi də qiymətləndirilə bilər.

Bu hadisə həm də ona dəlalət edir ki, bəzi məmurlar yenə də vəzifələrindən sui-istifadə edir, ələlxsus da özünü faktiki olaraq əksər sahələrdə doğrultmayan, vətəndaşlardan sadəcə vergi toplayaraq kabinetdə vaxt öldürməklə məşğul olan bəzi bələdiyyələr dövlətin şəffaflıq və anti-korrupsiya islahatlarının ahəngini və ritmini pozur, dövlətin hesabatlılıq və dürüstlük siyasətinə qarşı çıxır. Xüsusilə də hansısa icra orqanı ilə şəhər bələdiyyəsinin hələ də işbirliyi, birgə qanunsuz fəaliyyətinin kəsilməməsi, onların dövlət sərvətlərini talamaqdan çəkinməyərək vərdişlərini davam etdirməsi qanunun aliliyinə hörmətsizlikdir. Dövlət meşə fonduna aid torpaqların təyinatının dəyişdirilməsi, torpaq sahəsinin qanunsuz olaraq müxtəlif vətəndaşlara satılması nəinki ağır cinayətdir, eyni zamanda, "Yaşıllıqların mühafizəsi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", Torpaq və Meşə Məcəlləsinin, İnzibati Xətalar Məcəlləsinin, ümumilikdə, 10-dan artıq qanunun pozulması deməkdir.

Meşə Fonduna vurulan zərəri bəlkə də bərpa etmək olar, ancaq dövlətin qlobal ekoloji təşəbbüslərinə və "yaşıl quruculuğa" vurulan zərbəni isə bərpa etmək mümkün deyil. Ona görə də bu cür hallara yol verənlər CM-nin ən ağır maddələri ilə cəzalandırılmalı, onların bu əməlləri digərlərinə görk olmalı, meşələri qıran, meşə torpaqlarını satan dələduzlar barəsində ən sərt addımlar atılmalıdır.

*Elbrus*

# Qərb reallıqla barışmaq məcburiyyətindədir

## Azərbaycanın apardığı siyasət regionun azad inkişafını təmin edəcək

Ötən ilin dekabrından başlayaraq Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması üzrə proses yeni mahiyyət daşımaqdadır. Müvafiq delimitasiya və demarkasiya komissiyalarının intensiv xarakter alan görüşləri, iki ölkənin rəsmi strukturlarının birgə açıqlama yayması, o cümlədən bu ilin aprelində kəndlərin azad edilməsi ilə bağlı razılığın əldə olunması danışıqların yeni və müsbət inkişafını təmin edib. Artıq vasitəçi olmadan reallaşan ikitərəfli görüşlər ümidverici bəyanatlarla müşayiət olunur - təsadüfi deyil ki, bu hal mayın 10-da Almatıda baş tutan Ermənistan-Azərbaycan danışıqlarının növbəti raundu üçün də aktuallıq daşıdı. Ümumiyyətlə, vasitəçisiz görüş özünün mühüm məqamları ilə yadda qaldı - məsələn, Ermənistanın XİN rəhbəri görüşdən öncə verdiyi açıqlamada ölkəsinin sülh üçün maraqlı olduğunu dilə gətirdi. Eyni zamanda, regiondakı kommunikasiyaların açılması məsələsi yenidən diqqət mərkəzinə düşdü.

### Sülh prosesində mühüm mərhələ

Vurğulanmalıdır ki, Azərbaycanın haqlı və beynəlxalq konvensiyalara söykənən mövqeyi regionun gələcək inkişafı üçün yeni bir yolun müəyyənləşdirilməsinə fokuslanıb. Regionda yaranan yeni geosiyasi, eləcə də iqtisadi reallıqlar isə mühüm perspektivlər vəd etməkdədir. Azərbaycanın bölgənin əsas siyasi aktoru kimi oynadığı rol nəinki Cənubi Qafqazın, bütövlükdə, böyük bir coğrafiyanın yeni inkişaf mərhələsini formalaşdırır. Nəzərdə tutulan layihələrin icrası, qlobal münasibətlərin inkişafına yeni töhfələrin verilməsi üçün isə sülhün imzalanması, ölkələr arasında münasibətlərin normallaşması əsas şərtdir. Görünən isə budur ki, prosesin gedişi sülhü daha da yaxınlaşdırır.

Ötən dövrdə Azərbaycan prosesin irəliyə daşınması üçün kifayət qədər mühüm addımları ilə seçilib - hətta 2022-ci ilin mart ayında sülhün bağlanması üçün əlverişli mühitini formalaşdırılmasına xidmət edəcək, beynəlxalq hüquqa və ədalətə söykənən şərtləri qarşı tərəfə təqdim edib. Vurğulandığı kimi, Ermənistan bu vaxta qədər sülhün reallaşması üçün lazımi mövqeni nümayiş etdirə bilməmişdi - bu gün isə prosesin axarında əsaslı dönüş müşahidə olunur. Almatı görüşü regionun gələcək sabit inkişafı üçün başlanğıc nöqtəsinə, sülh prosesində mühüm mərhələyə çevrilə bilər.

### Parisin gecikmiş bəyanatı...

Proses beynəlxalq aləm tərəfindən də diqqətlə izlənir - verilən açıqlamalar, Almatı görüşü haqda ümidverici bəyanatlar bunu təsdiqləyir. Xüsusilə, Türkiyə və Rusiyanın bu görüşə ümidlə yanaşması, bölgənin gələcək inkişafı üçün əhəmiyyət daşıdığını qeyd etməsi mühüm məqamlardır. Amma bölgədə qeyri-konstruktiv meyllərin artması üçün səy göstərən bəzi qüvvələrin, məsələn, Fransanın görüşlə bağlı bəyanatı heç də səmimi xarakter daşımır. Belə ki, Fransa Xarici İşlər Nazirliyinin görüş ilə bağlı bəyanatında Parisin mayın 10 və 11-də Almatıda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların növbəti raundunun keçirilməsini alqışladığı vurğulanır. Bununla belə, bəyanatda yer alan bir sıra məqamlar var ki, Fransanın problemin həllinə göstərdiyi mənfi təsirlərdən əl çəkmədiyini də bir daha sübut edir. “Fransa 2022-ci il oktyabrın 7-də Praqada keçirilən dördtərəfli görüşə uyğun olaraq, bu proses üçün əsas kimi 1991-ci il Almatı bəyannaməsinə, tərəflərin ərazi bütövlüyünün qarşılıqlı tanınmasına bağlı olduqlarını təsdiqləmələrinin vacibliyini vurğulayır. XİN bu kontekstdə 19 aprel 2024-cü il tarixli razılaşdırılmış prinsiplər əsasında və yerlərdə aparılan ilk demarkasiya işlərinin davamı olaraq prosesi, eyni zamanda, iki ölkə arasında sülh müqaviləsinin imzalanması məqsədilə müzakirələri davam etdirməyə çağırır. Biz Qazaxıstan hakimiyyətinin bu danışıqların aparılmasına yardım etmək təşəbbüsünü alqışlayırıq. Fransa beynəlxalq hüquqa uyğun olaraq Cənubi Qafqazda ədalətli və davamlı sülhün bərqərar olması üçün öz tərəfdaşları ilə birgə fəaliyyətini davam etdirəcək”, - deyə bəyanatda bildirilir.

Bəyanatla bağlı maraqlı bir detal isə, bu sənədin görüşdən üç gün sonra yayılmasıdır. Təsadüfi deyildi ki, Fransa XİN bəyanatı Prezident İlham Əliyevin Şuşa şəhərinə ilk köçmüş sakinlərlə görüşdə səsləndirdiyi fikirlərdən sonra qəbul etdi. Dövlət başçısı bildirmişdi ki, bu gün də baxın bizə qarşı, kimlər, necə deyərlər, əsas rol oynayırlar - Fransa və Amerika: “Bunu açıq demək lazımdır, daha çox Fransa. Onlar da bilməlidirlər ki, bizim iradəmizdən kənar bu bölgədə heç bir məsələ həll olunası deyil”.



### Qeyri-səmimi “sevinc”...

Birincisi, əgər Fransa həqiqətən də bölgədə sülhün və sabitliyin bərpası üçün “səy göstərən” ölkə idisə, niyə Ermənistanı silahlandıraraq eni eskalasiyalar üçün zəmin yaradırdı? Eyni zamanda, illərdir Fransanın qanunverici strukturları - həm Senat, həm də Milli Assambleya səviyyəsində regilnda separatizmin, mövcud vəziyyətin saxlanılması üçün əlindən gələni əsrgəmir. Azərbaycanın 2023-cü ilin payızında Qarabağda keçirdiyi antiterror tədbirlərini hədəfə alan qətnamələr, bunun ardından isə, BMT TŞ çərçivəs ində Azərbaycana qarşı qaldırılan iddialar unudulmayıb. Əgər Fransa hökuməti “sülh üçün” səy göstərirdisə, niyə bu kimi addımlara əl atırdı?

Digər tərəfdən, Paris həm birbaşa, həm də Hindistanın əli ilə Ermənistana öldürücü silahlar ötürür, onu müharibəyə hazırlaşdırırdı. Bu amil də Parisin “danışıqların müsbət axarından sevinməsi” iddiasının səmimi olmadığını ortaya çıxarır. Bəyanatın sonunda “Fransa beynəlxalq hüquqa uyğun olaraq Cənubi Qafqazda ədalətli və davamlı sülhün bərqərar olması üçün öz tərəfdaşları ilə birgə fəaliyyətini davam etdirəcək” fikri isə Parisin vaxtilə ortaya qoyduğu mövqenin açıq fiaskosundan xəbər verir. Vurğulandığı kimi, Fransa indiyə qədər Cənubi Qafqazda qeyri-sabit durumun davam etməsi üçün çalışıb. Hazırki razılaşmalar, ikitərəfli münasibətlərdə yeni mərhələ isə Azərbaycan ilə Ermənistan arasında vasitəçisiz təmasların yaranmasından sonra baş tutub. Bu mənada, Fransanın bölgə ilə bağlı hər hansı bir “fəaliyyətinin” sülhə istiqamətlənəcəyi inandırıcı görünmür. Əksinə, Paris qarışmayaraq prosesin nəticəsini gözləsə, daha çox “töhfə vermiş” olar.

### ABŞ xəbərsizdir...

ABŞ isə regionda sülhün mümkünlüyünə inanmaqda davam edir. Bu fikri, ABŞ Dövlət Departamentinin sözçüsünün müavini Vedant Patel keçirdiyi mətbuat konfransında Azərtac-ın xüsusi müxbirinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ötən həftə Almatıda keçirilən görüşü ilə bağlı sualını cavablandırarkən deyib. O bildirib ki, bu məsələ ilə bağlı ABŞ dövlət katibi və digərləri çox yaxından maraqlanırlar: “Tərəflər arasında danışıqların necə keçməsinə dair yeni məlumatım yoxdur, amma biz regionda sülh prosesini dəstəkləməyə davam edəcəyik”.

Bəli, ölkəmizin bölgədə yaratdığı yeni siyasi mənzərə mühüm bir həqiqəti tam olaraq ortaya qoyur - artıq Qərb və Avropa regiondakı reallıqları görür və düzgün qiymətləndirməyə çalışır. Yeni mərhələdə müzakirə predmeti olan məsələlərin tənzimlənməsi prosesi iki dövlətin arasında gedir - üçüncü tərəfin iştirakı həm məqbul sayılmır, həm də prosesin axarına töhfə vermir. Əksinə, Ermənistan ilə Azərbaycanın öz aralarında razılıq əldə etməsi bütövlükdə, mühüm bir coğrafiyada proseslərin axarına müsbət təsirlərini göstərəcək. Bu isə, Avroasiyanın mərkəzində yeni inkişaf mərhələsi formalaşdıracaq.

***P.İSMAYILOV***

# Ölkəmizdə siyasi mədəniyyəti formalaşdıran amillər...

## Dövlət buna necə nail oldu?

Demokratik cəmiyyətlər və ölkələrdə vətəndaşlar hüquqlarının müdafiəsi üçün minimum siyasi mədəniyyətə malik olmalıdırlar. Çünki siyasi mədəniyyət özünü insanın bütün fəaliyyət sahələrində göstərir. Vaxtilə siyasi mədəniyyətin inkişafında mühüm rol oynayan Amerika alimi T.Almond siyasi mədəniyyət dedikdə, “fərdi mövqelərin və müəyyən sistem üzvlərinin siyasi fəaliyyətinin hərəkət və məqsədlərinin məcmusu”nu nəzərdə tutub. C.Foster isə siyasi mədəniyyəti “cəmiyyət üzvlərinin siyasi fəaliyyətinin birgə fikrinin ümumi çəkisi” kimi səciyyələndirirdi. Polşa alimi E.Vitr belə hesab edirdi ki, siyasi mədəniyyət - hakimiyyət və vətəndaşlar arasında qarşılıqlı əlaqələrin əxlaq kodeksinin, dəyərlərinin və mövqelərinin ümumi məcmusundan ibarətdir.

Etiraf edək ki, demokratik prinsiplərin hakim olduğu dövlətlərdə əhalinin siyasi və sosial mədəniyyət səviyyəsi inkişaf edib. Sosial və siyasi mədəniyyətin inkişafı xalq və hakimiyyət münasibətlərinə müsbət təsir göstərir və milli birliyi möhkəmləndirir.

**Vətəndaşların siyasi fəallığını artıran səbəblər**

Mövzunu “Yeni Azərbaycan”a şərh edən Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə bildirib ki, ümumi mədəniyyət anlayışının düzgün təbliği cəmiyyətdə sosial və siyasi mədəniyyətin inkişafına müsbət təsir göstərə bilər. Onun sözlərinə görə, vətəndaşların sosial və siyasi fəallığının artırılması üçün davamlı işlərin görülməsi vacibdir: “Bu istiqamətlərdə inkişafa nail olmaq üçün ailələr, təhsil müəssisələri və siyasi institutların üzərinə böyük məsuliyyət düşür. Vətəndaşların, xüsusilə də gənclərin sosial və siyasi fəallığı artırılmalı, dövlətin taleyüklü məsələlərində cəmiyyətin mövqeyi və marağı, o cümlədən gənclərin baxışı nəzərə alınmalıdır. Düşünürəm ki, ölkədə bu sahədə həyata keçirilən tədbirlər təqdirəlayiqdir və öz bəhrəsini verməkdədir. Əlbəttə ki, Azərbaycanda seçkili hakimiyyətin mövcudluğu, xalqın seçiminin daim nəzərə alınması siyasi mədəniyyətin və hüquqi düşüncənin inkişafına müsbət təsir göstərir. Fikrimcə, cəmiyyətin siyasi şüurunun formalaşmasının başlıca elementlərindən biri məhz siyasi institutların şəffaf fəaliyyəti və seçkilərin keçirilməsidir. Vətəndaşlara seçib-seçilmək hüququnun tanınması onların siyasi fəallığının artırılmasına bilavasitə səbəbdir”.

**Dövlət və vətəndaş arasında münasibət**

Ç.Qənizadə qeyd edib ki, Azərbaycanda, əsasən, müstəqillik əldə edildikdən sonra formalaşan siyasi mədəniyyət azərbaycançılıq kontekstində inkişaf edir, bu ideologiyaya xidmət göstərir: “Siyasi mədəniyyətin hesabına müxtəlif siyasi sistemlər, partiyalar yaradılır və müəyyən siyasi çərçivədə fəaliyyət göstərir. Dövlət və vətəndaşlar arasında qarşılıqlı münasibət yaranır. Dövlətin bütövlüyünün və dövlətdə demokratik dəyərlərin qorunmasına şərait yaranır. Siyasi mədəniyyəti yüksək olan vətəndaşlar öz hüquq və azadlıqlarını daha yaxşı dərk edir. Müasir dövrümüzdə də siyasi mədəniyyət əsas tədqiqat obyekti kimi qalmaqdadır”.



**Yeni siyasi mədəniyyət formalaşıb...**

Komitə sədrinin sözlərinə görə, aparılan tədqiqatlar göstərir ki, Azərbaycan sosial-mədəni dəyişikliklər baxımından uğurlu yoldadır: “Son illər Azərbaycan əhalisinin sosial həyat tərzində baş verən dəyişikliklər də əhalinin siyasi mədəniyyətinə müsbət təsirlərini göstərib. Sosioloji sorğular göstərir ki, ölkə əhalisi siyasi sistemə münasibətdə olduqca informativ və aktivdir. Siyasi sistemin sabitliyinə və davamlığına xalqın rəyi dəyişilməzdir.

Bir məqamı da xüsusi vurğulamaq yerinə düşər. Gənclər hər bir ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni-humanitar həyatında mühüm rola malik potensial qüvvə kimi əsas yer tutur. Güclü və aktiv qüvvə sayılan gənclər ölkə həyatının bütün sahələrində öncül yer tutmaqla yüksək indikatorlara çatmağa zəmin yaradan zəngin bazadır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə qeyd edib ki, “Azərbaycanda həyata keçirilən gənclər siyasətinin mahiyyətində gəncliyi dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq, eyni zamanda, dünyadakı rəqabət şərtlərinə davam gətirəcək səviyyədə intellektual və mobil qüvvə kimi görmək istəyi dayanır”. Qeyd edilən məsələyə professional yanaşmanın məntiqi nəticəsidir ki, bu gün gənclər hakimiyyətin müxtəlif qollarında təmsil olunmaqla dövlət idarəçiliyində yaxından iştirak edirlər”.

Azərbaycanda siyasi mədəniyyətin formalaşması həm də cəmiyyətin siyasi cəhətdən yeniləşməsi səviyyəsi ilə ölçülməlidir. Müasir Azərbaycan sosial-siyasi həyatında əsaslı islahatlar həyata keçirilməkdə və ölkə müasirlik yolunda böyük uğurlar əldə etməkdədir. Nəticə etibarilə yeni siyasi mədəniyyət formalaşıb”.

***Y.SAHİB***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti üzrə hazırlanmışdır**

**Tarixə baxış...**

# Xəyanətin acı nəticələri

## 1992-ci ilin may hadisələri Laçının işğalına yol açdı

**XX əsrin son onilliyində ikinci dəfə özünün müstəqilliyini əldə edən Azərbaycan dövləti böyük sınaqlarla üz-üzə qaldı. 1990-92, o cümlədən 1993-cü ilin birinci yarısında baş verən proseslər Azərbaycanı böyük təhlükələrə sürükləmiş, torpaqların işğal altına düşməsinə vəsilə olmuşdu. Bu gün azadlığını qeyd etdiyimiz, 30 ildən sonra ilk sakinlərini qarşılayan Şuşa, Laçın kimi rayonlarımız siyasi oyunların qurbanına çevrilərək işğal altına düşmüşdü. 32 il öncə - 1992-ci ilin mayında baş verən bu faciələr ölkəmizdə hakimiyyətə yiyələnmək istəyən qüvvələrin xəyanətini bariz şəkildə ortaya qoyur.**

### Şuşanı düşmənə təhvil verdilər...

Qeyd edək ki, 1992-ci ilin fevralında baş vermiş Xocalı soyqırımı həmin dövrdə mövcud hakimiyyəti devirərək iqtidarı ələ almağa çalışan Azərbaycan Xalq Cəbhəsi üçün mühüm fürsətə çevrildi. O dövrdə Azərbaycan prezidenti olan Ayaz Mütəllibov AXC-nin təzyiqi ilə 6 martda prezident vəzifəsindən istefa verdi. Növbəti prezident seçkilərinə qədər prezident səlahiyyətləri Ali Sovetin sədri Yaqub Məmmədova həvalə edildi. Müdafiə naziri vəzifəsi isə AXC-nin tələbi ilə bu qurumun üzvü olan Rəhim Qazıyevə verildi. Məhz həmin dövrdən başlayaraq AXC ölkədəki vəziyyəti sabotaj etməklə hakimiyyətə yiyələnməyə çalırşırdı. AXC-yə başçılıq edən şəxslər ətraflarında yaratdıqları silahlı dəstələrdən quldurluq məqsədi ilə istifadə edir, onları cəbhədən geri çəkir və hətta bəzi regionlarda talançılıq ilə də məşğul olurdular. Bu isə 1992-ci ilin mayın 8-də Şuşanın işğalına yol açdı. Hərbi gücü əlində saxlayan AXC iqtidara gəlmək üçün strateji əhəmiyyət daşıyan şəhəri ermənilərə təslim etdi.

Bu il mayın 10-da Şuşaya köçən ilk sakinlərlə görüşündə Prezident İlham Əliyev bildirib ki, məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü: “Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi. Siz ki, bunu yaxşı bilirsiniz. Şuşa yiyəsiz qalmışdı və Şuşanın düşmənə təhvil verilməsi Xalq Cəbhəsinə hakimiyyətə gəlmək üçün yol açdı. İndi baxın, o tarixlərə, tarixi hadisələrə. Bir neçə gündən sonra onlar hakimiyyətə gəldilər, o hakimiyyəti yıxdılar, çevriliş etdilər. Xalqın haqlı etirazını, necə deyərlər, öz tərəflərinə çəkmək üçün Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər. Bununla da keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanla de-fakto coğrafi nöqteyi-nəzərindən birləşdi”.



### AXC-nin hakimiyyət hərisliyi Laçının işğalına şərait yaratdı

Şuşanın işğalının ardından isə ölkədəki siyasi vəziyyət daha kəskin hal aldı - böhran bütün istiqmətlərdə hiss olunurdu. 1992-ci ilin mayın 14-də Azərbaycan Ali Soveti yenidən iclas keçirdi və Ayaz Mütəllibov yenidən öz vəzifəsinə bərpa edildi. Vəzifəsinə bərpa edilmiş Mütəllibov isə Bakıda iki ay müddətinə fövqəladə vəziyyət rejimi tətbiq etdi. Amma Mütəllibov bərpa olunduğu vəzifəsində çox da qala bilmədi - onun prezident səlahiyyətlərinin bərpa edilməsini dövlət çevrilişi hesab edən AXC bu dəfə silahlı çevriləşə əl atdı. “AXC batalyonu” adlanan silahlı dəstələr 14 maydan 15 maya keçən gecədə cəbhə xəttindən geri çəkildi. AXC rəhbərlərinin başçılıq etdiyi qoşunlar, xüsusilə Laçın alayının çoxlu sayda əsgəri mövqelərindən geri çəkilərək Bakıya gətirildilər. AXC əvvəlcə Mütəllibova ultimatum göndərdi, lakin diplomatik mənbələr rus əsgərlərinin müdaxilə etməyəcəyini bildirdikdən sonra silahlı hücum başladı. 15 mayda, günorta saatlarında AXC-nin hərbi qolunun rəhbəri olan İsgəndər Həmidov zirehli texnika və əsgərlərdən ibarət kolonla Bakıya girdi. Silahlı dəstələr atəş aça-aça, eyni zamanda, tanklar və zirehli maşınlar Milli Məclisin binasını mühasirəyə aldı. Ardınca silahlı dəstələr televiziyaya basqın etdi. Atışmada bir neçə adam həyatını itirdi, xəsarət aldı. Mütəllibov isə yenidən devrildi. Ayaz Mütəllibov çevrilişin növbəti günü Qala aviabazasından Moskvaya yola düşdü. Silahlı çevrilişdən sonra AXC hakimiyyətə yiyələndi. Amma bu siyasi şərislik daha böyük faciələrə yol açdı - mayın 18-də Laçın işğal edildi. Jurnalist Çingiz Mustafayev AXC qoşunlarının Laçını tərk etməsini lentə almışdı.



### Xəyanətkarlar qələbəmizə də sevinmirlər

Bu şəxslərin siyasi hakimiyyət hərisliyi torpaqlarımızın 30 ildən artıq işğal altında qalmasına səbəb oldu. 44 günlük Vətən müharibəsi nəticəsində isə Şuşa və Laçın, o cümlədən digər rayonlarımız işğaldan azad olundu. Antiterror tədbirləri suverenliyimizin bərpasını reallaşdırdı. Bu gün qələbələrimiz Azərbaycanın bütövlüyünü təmin edib. Amma 1990-cı illərin əvvəlində xəyanət, hakimiyyət hərisliyi ilə torpaqların işğalına şərait yaradanlar bu gün qələbəyə sevinmirlər. Prezident İlham Əliyev Şuşadakı çıxışında bildirib ki, təsadüfi insanlar hakimiyyətə gəldi: “Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi. Şuşanı müdafiə etməyə söz verən, əks təqdirdə öz başına güllə çaxmağa söz verən o ünsür görəsən indi hansı hisslər yaşayır? Əminəm ki, bu günə sevinmir. Onun kimilər, o vaxt hakimiyyətə can atan AXC-Müsavat cütlüyünün tör-töküntüləri, onların böyük əksəriyyəti bizim Zəfərimizə sevinməyiblər, əksinə peşman olublar. Bizim Qələbəmizə bu günə qədər kölgə salmağa çalışırlar, ermənilərlə əlbir olub bizim Zəfərimizi aşağılamaq, ona kölgə salmağa çalışırlar”.

***SADİQ***

# İcbari Tibbi Sığorta ilə...

## Hansı ürək xəstəliklərinin müayinəsi pulsuz olacaq?

Bu gün dünya səhiyyə sistemində icbari tibbi sığorta geniş yayılmış tibbi xidmətlər modeli hesab olunur. Tibbi sığorta modelinin yaradılmasında əsas məqsəd səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirməklə əhaliyə daha etibarlı, keyfiyyətli və səmərəli tibbi xidmətlər göstərilməsini təmin etməkdir. Məhz bu yolla xəstəliyi olan insanlar səmərəli müalicə ala bilirlər.

İcbari tibbi sığorta əhalinin uyğun həcmdə tibbi və dərman yardımı almasına təminat verən sığorta növüdür. Azərbaycanda icbari tibbi sığortanın həyata keçirilməsi məqsədilə hələ 1999-cu ildə "Tibbi sığorta haqqında" Qanun qəbul olunub. Bu məqsədlə 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb.

**9 faiz artım...**

Son məlumatlara əsasən, ölkəmizdə icbari tibbi sığorta daxilolmaları artıb. Belə ki, il ərzində icbari tibbi sığorta haqları üzrə daxilolmalar 9,2 faiz artaraq 318,3 milyon manat olub.



**Pasiyent 12 yaşa qədər uşaqdırsa...**

Bundan başqa, icbari tibbi sığorta hesabına 2021-2023-cü illərdə isə 8100-dən çox aorta koronar şuntlama əməliyyatı icra olunub. Qeyd edək ki, aorta koronar şuntlama əməliyyatı ürəyin işemik xəstəliyinin ən effektiv müalicə üsullarından biridir. Bu barədə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin şöbə müdiri Leyla Lətifova bildirib: "Ürəyin işemik xəstəliyinin diaqnozu, elektrokardioqramma, exokardioqramma, müəyyən laborator müayinələr, qanın testi, tredmill testləri İcbari Tibbi Sığorta paketində var və bu müayinələr üçün ödəniş etməyə ehtiyac yoxdur. Eyni zamanda vətəndaşın xəstəxanada yatış dövründə qidalanması da İcbari Tibbi Sığorta hesabına qarşılanır. Əgər vətəndaş 12 yaşa qədər uşaqdırsa, onu müşayiət edən şəxsin də qidalanması sığortaya daxildir".

**Sığorta paketindəki digər ürək əməliyyatları...**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən "Yeni Azərbaycan"a verilən açıqlamaya görə, ürəklə bağlı çoxsaylı əməliyyatlar icbari tibbi sığorta paketinə daxildir. Vətəndaşlar daha geniş məlumat üçün Agentliyin saytına daxil olub "Xidmətlər Zərfi" bölməsinə nəzər yetirə bilərlər: "Açıq ürək əməliyyatları, angioqrafiya, stendin qoyulması kimi əməliyyatlar sığorta ilə edilir. Həmçinin ürək resinxronizasiya defibrilyatorun implantasiyası, ürəkdə çəpər defektinin yaradılması, ürəyin müəyyən edilməmiş çəpər defektinin toxuma qrefti ilə bərpası, ürəyin korreksiya prosedurunun reviziyası xidmətlər zərfində yer alıb".

**Vətəndaşların nəzərinə...**

Agentlikdən bildirilib ki, eyni zamanda, labarator analizlər, radioloji müayinələr ürəyin biopsiyası, ürək anevrizmasının kəsiklə çıxarılması, ürəyin zədələnmə və ya toxumasının kəsiklə çıxarılması və ya destruksiyası da icbari tibbi sığota ilə qarşılanır: "Xidmətlər Zərif Nazirlər Kabineti tərəfindən 2020-ci ildə 5 nömrəli qərarla təsdiqlənib. Vətəndaşlar ilk öncə ya Səhiyyə Nazirliyinin, ya da TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində həkim müayinəsindən keçməlidirlər. Həkimin təyinatı nə olsa, həmin xəstəxananın sığorta şöbəsinə yaxınlaşdıqda vətəndaşlar icbari tibbi sığortanın həyata keçirildiyi müəssisələrə yönəldiləcəklər".

*Yeganə BAYRAMOVA*

# Zəngəzur eşqiylə döyünən qəlblər...

Böyük Qələbə ilə nəticələnən Vətən müharibəmiz 30 ilə yaxındır düşmən işğalında olan Qarabağımızı özünün əsl sahiblərinə geri qaytarmaqla yanaşı, bütövlükdə, Azərbaycan xalqının qəlbində təptəzə ümid, yepyeni inam cücərtdi. Bu ümidlə dörd ildir ki, xalqımız gələcəyi daha parlaq, daha işıqlı, daha aydın görür. Axı Qarabağ bu başıbəlalı xalqın ilk itkisi, ilk həsrəti deyil. Məsələn, indi Qarabağa başlayan köçə həsrətlə baxan, bir zamanlar özlərinin də beləcə öz yurd-yuvalarına qovuşacağına inanan Qərbi azərbaycanlılar- zəngəzurlular, göyçəlilər, dərələyəzlilər, vedililər var... Axı onlar da öz ata-baba yurdlarının həsrəti ilə ömür sürür, saç ağardırlar...

Onlardan biri də Quliyev Əkbər Hüsü oğludur. Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin texniki avadanlıq üzrə mütəxəssisi olan Əkbər bəy əslən Qərbi Azərbaycanın Zəngəzur mahalının Gorus rayonunun Ağbulaq kəndindəndir. Uşaqlığı həmin kənddə keçən müsahibim deyir ki, əgər bu dünyada cənnət deyilən yer varsa, şübhəsiz ki, onun bir parçası məhz Zəngəzurdur:

"Ağbulaq güneyini, quzeyini saran meşələri, saysız-hesabsız buz bulaqları ilə yaddaşımın ən gözəl yerində indi də yaşamaqdadır. O bulaqlar elə möcüzəvidir ki, bir quzunun kababını yeyib üstündən bircə stəkan o bulağın suyundan içsən, təzədən acırdın. Sarı bulaq, Xor-xor bulağı, Çömçə bulaq, Nağdalı bulağı, Sofulu bulağı, Alçalıq bulağı, Peyvaz bulağı... Demək olar ki, hər daşın, hər ağacın dibindən bir bulaq qaynayırdı. Həmin bulaqların adları, hətta sularının dadı belə bu gün də tək-tək yadımdadır. İyul ayında kəndimizdəki Kəpəz dağına çıxırdıq. Dağın başında ağ qar hələ də qalmış olurdu və biz uşaq dəcəlliyi ilə həmin qarı götürüb qaça-qaça kəndə gəlirdik. Yolda qar əriyirdi və ovcumuzda suyu qalırdı.

Meşələrində o qədər yabanı meyvə ağacları vardı ki, sanki Allah bütün nemətləri elə ora bəxş etmişdi. Yaz gələndə hər tərəf sanki rəngarəng xalça kimi gül-çiçəklə örtülürdü. Ətri insanı bihuş edirdi. Meşələri elə sıx idi ki, adına "Qaranlıq meşə" deyərdik. Çünki günün günorta çağı oraya girəndə elə bilirdin qəfildən qaranlıq düşdü. Ağacları o qədər sıx və hündür idi ki, Günəşin qarşısını kəsirdi.

Təbiəti o qədər saf, gözəl idi ki, soyuq iqliminə baxmayaraq, heç birimiz xəstəlik nədir bilməzdik. Kənddə heç kəsin sağlamlığı ilə bağlı bircə problemi də yox idi. Halbuki, bəzən oktyabrdan qar yağmağa başlayar, aprel ayının axırına kimi davam edərdi. Hətta bir dəfə iyun ayının 4-də kəndimizə qar yağmışdı.

Hələ əvvəlki dövrlərdən Ermənistanda azərbaycanlılar əsasən təhsil məsələsində sıxışdırılırdılar. Belə ki, Yerevan Zəngəzurdan çox uzaq olduğu üçün Azərbaycan dilindəki ali məktəblərin sayı, demək olar ki, yox dərəcəsində idi. Bakıya gəlib ali təhsil alan azərbaycanlılara da şərait yaradılmırdı. Onlar ancaq kənd təsərrüfatı ilə məşğul ola bilirdilər. Çünki dövlət idarələrində erməni dili yeganə dil idi. Nə Azərbaycan, nə də rus dilləri qəbul olunmurdu. Ona görə də kəndin təhsilli cavanları məcbur qalırdılar ki, gəlib Azərbaycanda məskunlaşsınlar, öz ixtisasları üzrə işləsinlər. Ermənilər çox məmnuniyyətlə savadlı insanların oradan uzaqlaşmasına razı olurdular.

Mən də hərbi xidmətdən sonra təhsil almaq üçün Azərbaycana- Sumqayıt şəhərinə gəldim və burada məskunlaşmaq məcburiyyətində qaldım. Buna baxmayaraq, ta 1988-ci ilə kimi bütün məzuniyyətlərimi öz doğma kəndimdə keçirirdim".

Doğulduğu və yaşadığı coğrafiya səbəbindən hər iki xalqı yaxşı tanıyan müsahibim ermənilərlə azərbaycanlıların fərqini də dəqiqliklə ifadə edir:

"Bizim kənddə ermənilər yaşamasa da, rayon mərkəzinə gedəndə tez-tez onlarla qarşılaşırdıq. Qəribədir ki, həmin zamanlarda belə ermənilərin azərbaycanlılara olan nifrətini hər zaman hiss edirdik. Ancaq mən Azərbaycana gələndə burada heç zaman ermənilərə qarşı nifrət, kin hiss etmədim. Biz hər zaman güzəştə gedən, unutqan millət olmuşuq. Yüz illərlə bizə çəkdirdikləri zülmü, əzabı unutmuşuq, güzəştə getmişik. Onlar isə heç vaxt bizi sevməyiblər. Onlarda xoşuma gələn tək məqam bizə "türk" deməkləridir. Rast gələndə həmişə soruşurdular "ermənisən, ya türksən?" Heç vaxt bizə azərbaycanlı deməzdilər. Baxmayaraq ki, Sovet dövründə bizə "azərbaycanlı" adı qoyub milli kimliyimizi unutdurmağa çalışırdılar, amma onlar özləri də bilmədən bizə xatırladırdılar ki, siz türksünüz".

İllərdir öz kəndinə, yurd-yuvasına həsrət yaşayan Ə.Quliyevin də tək arzusu o torpaqlara qovuşmaqdır:

"Kənddən çıxarıldıqdan sonra bütün dünyamız alt-üst oldu. Tək mən yox, demək olar ki, bütün Qərbi azərbaycanlılar hər gecə yuxularımızda o cənnət məkanları, öz doğma yurdumuzu görürük.

O yerlərə dönmək bütün azərbaycanlıların, Türk dünyasının arzusudur. Çünki ora bizim ata-baba torpaqlarımızdır. Yüz illər, min illər öncə yaşamış əcdadlarımız ruhu orada çox narahatdır, nigarandır və bizim oraya qayıdışımızı gözləyir. O torpaqlar bizim üçün əvəzolunmazdır, gec-tez qayıtmalıyıq. Düzdür, bura da bizim vətənimizdir, doğma elimizdir. Ancaq hər bir insanın doğulduğu, uşaqlığının keçdiyi balaca bir kənd onun ilk vətəni, dünyasıdır. Tarix boyu Zəngəzur türk torpağı olub. Orada bizim kökümüz var. Oralar Türk torpağıdır. Türkün torpağı da türkə qayıtmalıdır.

Kəndimizə qayıtsam, ilk hara gedəcəyimi özüm də bilmirəm. Çünki onun hər qarışı mənim üçün əzizdir. Ağbulaq bulağından tutmuş Kəpəz dağının zirvəsinə qədər hər addımı doya-doya gəzərəm".

Əkbər Quliyev təkcə öz xatirələrində, qəlbində deyil, həm də ailəsində yaşadıb Zəngəzur sevgisini. Üç övladı Qərbi Azərbaycanı, Zəngəzuru görməsələr də, atalarının xatirələrindən, söhbətlərindən tanıyıb, seviblər və bu gün fəxrlər, qürurla Qərbi azərbaycanlı olduqlarını hər yerdə deyirlər. Onlardan biri də istedadlı gənc jurnalist Aysel Quliyevadır. Aysel xanım ta uşaqlığından uşaq saflığı ilə tarixi bilməyən insanlara ermənistanlı yox, Qərbi azərbaycanlı olduğunu anlatmağa çalışır:



"Biz uşaqlığımızdan ailəmizdə Qərbi Azərbaycan, Zəngəzur sevgisi ilə böyümüşük. Atam həmişə bizə xəritədə o yerləri göstərib, əslimizin haradan gəldiyini başa salıb. Hətta uşaq vaxtı bir dəfə məktəbdə sinif yoldaşım dedi ki, siz ermənistanlısınız, deməli ermənisiniz? Mən hələ uşaq olduğum üçün tam fikrimi izah edə bilmirdim ki, əslində, oralar Azərbaycanın qərb torpaqlarıdır.

Atam hər zaman tarixlə yaxından maraqlanıb, tarixi kitabları oxuyub, mənbələri araşdırıb. Həmişə öz soykökümüzlə bağlı nəsə maraqlı tarixi fakt tapanda mütləq bizi yanına çağırar, bizə də bir-bir başa salardı. Bunun sayəsində mən bu gün öz soykököm, əslim, nəslim haqqında hər şeyi bilirəm, milli kimliyimin fərqindəyəm.

Sevindirici haldır ki, biz öz tariximizi təkcə atamdan deyil, digər Qərbi azərbaycanlılardan da eşidirdik. Yaşıdım olan gənc nəsil də öz soykökünü yaxşı tanıyır və hər zaman sahib çıxır. Onlarla söhbət zamanı eyni məlumatlara, eyni bilgilərə sahib olduğumuzu görüb çox sevinirəm ki, gənc nəsil də öz yurdunu, tarixini unutmur.

İndi ən böyük arzum atamın, qohumlarımın doğulduğu, böyüdüyü o torpaqlara getmək, onların uşaqlığının keçdiyi yerləri gəzməkdir. Çox şükür ki, bu gün Qarabağımız azaddır. Qarabağdan olan və 30 il köçkün həyatı yaşayan həmvətənlərimiz artıq öz yurd-yuvalarına qayıdırlar. Bu, bizdə böyük ümid doğurur. İnanırıq ki, vaxt gələcək cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə biz Qərbi Azərbaycanlılar da öz yurd-yuvalarımıza qayıdacaq, tarixi torpaqlarımıza qovuşacağıq".

*Şahanə MÜŞFİQ*

# Qafqazı "qarışdıran əl"

## Gürcüstanda və Ermənistanda baş verənlər nəyin təzahürüdür?

Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması Cənubi Qafqazın həyatında yeni - sabit və inkişafa yönəlik dövrün başlama perspektivini formalaşdırır. Regionda 4 ildir ki, davam edən və özünün məntiqi nəticəsinə yaxınlaşan proses bu gün yeni iqtisadi-siyasi nizamı ortaya çıxarır - bu isə Cənubi Qafqazın stabil və sabit məkan kimi şöhrət qazanması, tanınması, qlobal layihələrin bizim coğrafiyada təşəkkül tapması üçün həm də bir əsasa çevrilir. Azərbaycanda yürüdülən dövlət siyasəti və bu siyasətin əsas prioritet istiqamətləri Cənubi Qafqaz üçün inkişaf tempi perspektivi vəd edir. Bəli, sülhün imzalanmasına bir addım qalmış mənzərə təxminən bu formadadır - Azərbaycan dünyanın yeni iqtisadi münasibətlər sistemində özünəməxsus yerə malik olan Cənubi Qafqaz evinin inşası üçün səy göstərir, bu yolda ortaya çıxan maneələri aradan qaldırmaq üçün bütün diplomatik, iqtisadi, siyasi rıçaqlarından istifadə edir. Verilən bəyanatlar, səsləndirilən fikirlər bu prioritetin nə qədər ciddi olması ilə yanaşı, uğur qazanma ehtimalının da böyüklüyünü ortaya qoyur.

### Qərbin Gürcüstandakı "marağı"...

Amma təəssüf ki, region ölkələrində hazırda cərəyan edən hadisələr tamam fərqli mənzərədən xəbər verir. Həm Gürcüstanda, həm də Ermənistanda baş verənlər vahid bir qənaət yaradır - siyasi boşluqlar, qarşılıqlı etimadın aşağı olması, xarici müdaxilələrə qarşı kövrək və həssas durum (bu amili hətta xarici müdaxilələrin qarşısının alınmasında acizlik kimi dəyərləndirmək mümkündür). "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin ətrafında günlərdir, həftələrdir davam edən ajiotaj, buna münasibətdə Qərbin tuduğu mövqe çox şeydən xəbər verir. Bu bir daha onu göstərir ki, dövlətin öz marağına fokuslanması ən vacib şərtdir - Gürcüstanın timsalında illərdir Avropa təsisatlarının, ABŞ institutlarının çaldığı havaya oynamaq ölkəni yalnız və yalnız "zəif bənd"ə çevirir. Faktlar ortadadır:

- Post sovet məkanından Qərbə "can atan" dövlətlərin başına gətirilən oyunlar (Baltikyani dövlətlər presedent sayıla bilməz - onlar əvvəlcədən Qərbi Avropa təsirində olublar);
- İllərdir "demokratiya" adı altında Gürcüstandan və Ukraynadan öz maraqları üçün istsifadə etmələri;
- Bu ölkələrdə formalaşdırılan təsisatların vasitəsilə "yumşaq güc" formulunu daha geniş areala yaymaq istəyi.

Gürcüstanda baş verən məxməri inqilab sonrası Qərbin Tbilisidən "Şərq filialı" kimi istifadə etmə cəhdləri sirr deyil. Hətta digər ölkələrdə fəaliyyət göstərən "agentura şəbəkələri"nin görüş yeri kimi Tbilisi xarakterizə olunurdu. Bunu "demokratik ab-hava" kimi qələmə verməyə çalışanlar isə mövcud vəziyyətdən maksimum yararlanmaq niyyətində idilər. İllərlə Gürcüstan cəmiyyətində monolitliyin, bütövlüyün bərqərar edilməməsinin səbəblərindən biri və bəlkə də birincisi və məhz xarici təsirlərin güclü xarakter daşıması olub. ABŞ və Avropa "ilğım vədləri" ilə oradakı bəzi siyasi qrupların diqqətini cəlb edib - nəticədə bugünkü vəziyyət meydana çıxıb.





### Kilsə ideologiyası xarici güclərin "siyasi rıçaq"ına çevrilir

Ermənistandakı vəziyyət isə bir az daha fərqlənir. Heç bir zaman dövlətçilik ənənəsi olmayan Ermənistanın 44 günlük müharibədəki məğlubiyyəti ilə darmadağın olan "erməni mifi" bu xalqı, cəmiyyəti və "dövləti" reallıqlarla üz-üzə qoydu. Bu ölkənin əsas ideoloji istiqamətvericisinin kilsə olması növbəti dəfə təsdiqləndi - təsadüfi deyil ki, bütün siyasi proseslərdə kilsə ön plana çıxmaq istəyir. "Qalstyan hərəkatı" sırf qrup maraqlarının ortaya çıxardığı nəsnədir - bunu həm proseslərin axarı, həm də dilə gətirilən "tələblər" sübuta yetirir. Cəmiyyətdə qeyri-adekvat münasibət, siyasi proseslərdə ardıcıllığın müşahidə edilməməsi, ən əsası milli marağın ikinci plana keçirilməsi bu ölkədəki qarşıdurmaların əsas səbəbi kimi meydana çıxır. Bu kimi boşluqlar isə xarici təsirlərin mümkün müdaxiləsini reallaşdırır. Bu gün mübaliğəsiz demək mümkündür ki, Ermənistan xarici güclərin "müharibə meydanına" çevrilib. Cəmiyyətin və ya dövlətin "nə istədiyi" və ya "niyə istədiyi" elə də vacib sayılmır - tam əksinə, hansı ölkənin və ya gücün dəstəklədiyi qrupun önə çıxacağı mübarizəsi şiddətlənir.

Bu məqamda 5 aprel görüşü yenidən yada düşür. Hansı ki, bu görüşdə Avropa İttifaqı 270 milyon avroluq "2024-2027-ci illərdə Ermənistanın dayanıqlığı və artımı" proqramı ilə çıxış edəcəyinə söz vermişdi. Əldə edilən razılaşmalarda Ermənistanın "demokratik inkişafına dəstək" şüarları yer almışdı. Görüşdən cəmisi 1 ay keçməmiş Ermənistan bu "razılaşmaların" ağır sindromlarını yaşamağa məcbur edilir. Bu isə onu göstərir ki, Ermənistan xarici siyasi məqsədlər üçün "açıqdır" - bu və ya digər şəkildə bütün güclər bu ölkədə istədiyi siyasi prosesi yarada bilər, dəstəkləyər və hətta nəticələndirər. Təsadüfi deyildi ki, 5 aprel öncəsi bir sıra siyasi mütəxəssislər Ermənistanın yeni Ukraynaya çevrilməsi "perspektivi"ndən danışırdılar. Bu gün baş verənlər müəyən mənada deyilənləri təsdiqləyir.

### Qərbin Köçəryan planı işə düşür

Ermənistanda baş verənlərin siyasi sinxronizasiyasına nəzər saldıqda isə ortaya maraqlı bir tablo çıxır - dünənə qədər Paşinyanı dəstəkləyən qüvvələr bu gün açıq şəkildə yeni alternativ haqda düşünür və danışır. Hətta bu alternativ üzərində müəyyən gedişlər belə hesablanır - bu heç də gizli formada edilmir. Qərbin Ermənistanın keçmiş prezidenti Robert Köçəryanı seçməsi müəyyən ştrixlərdən bəlli olur. Bəzi mənbələr Serj Sarkisyan variantını irəli sürsələr də, onun vaxtilə Paşinyanın qarşısında məğlub duruma düşməsi bu seçimi qeyri-real edir. Köçəryan isə Qərb üçün daha "əlverişli" sayılır.

Xatırlatma edək ki, siyasi kluarlarda Köçəryan heç də "Qərbin adamı" sayılmır - amma son hadisələr onu deməyə əsas verir ki, "separatçı Qarabağ klanı"nın keçmiş başçısı siyasi yönünü dəyişmiş kimi görünür. Diqqət yetirsək, əgər 2021-ci ildə Köçəryan Rusiya prezidenti ilə telefon danışığında Ermənistan-Rusiya münasibətlərini müzakirə edirdisə, 2023-cü ildə yayılan səs yazısında artıq özünü "siyasi proseslərin girovu" adlandırırdı və xilas üçün yollar axtardığını vurğulayırdı. Bu isə onu deməyə əsas verir ki, Köçəryan axtardığı "çıxış yolu"nu Qərbə satılmaqla tapıb. Paşinyanın isə öz "cinahına" qayıtması bütün spektrlardan bəllidir - istər Avroasiya İqtisadi İttifaqına geridönüşü, istərsə də KTMT məsələsində loyallaşması Qərbin Paşinyana olan "ümidlərini" puça çıxardı. Bunun nəticəsidir ki, vaxtilə Paşinyanı Ermənistanda hakimiyyət nərdivanının başına keçirənlər bu gün onun impiçmenti üçün "1 səs" axtarırlar. Bu yerdə "Saakaşvili nümunəsi" yenidən xatırlanır...

Beləliklə, Cənubi Qafqazdakı mövcud vəziyyətin rəsmi təxminən bu formadadır. Bir daha vurğulanmalıdır ki, istər Ermənistanda, istərsə də Gürcüstanda baş verənlər bu ölkələrdə siyasi monolitliyin olmamasından qaynaqlanır - hər iki ölkədə iqtidar cəmiyyətin mütləq dəstəyini ala bilmir. Bunun nəticəsi isə fərqli xarici maraqların ölkənin daxili proseslərinə müdaxilə imkanlarını artırır.

### Nə Qərb, nə də digər maraqlı dövlətlər Azərbaycana müdaxilə edə bilmir...

Azərbaycanda isə tamam fərqli bir mənzərədir - bu gün Azərbaycan özünün qətiyyətli siyasi mövqeyi ilə seçilir. Yalnız milli maraqlara əsaslanan xarici siyasət kursu isə çoxtərəfli əsaslara söykənir. Azərbaycandakı xalq-dövlət birliyi sabitliyin, monolitliyin və inkişafın əsas stimulvericisi rolunda çıxış edir. Dövlət xalqın maraqlarını əsas götürərək özünün siyasi hədəflərini müəyyənləşdirir. Xalq isə dövlətinin arxasında vahid güc kimi çıxış edərək bu siyasətin daha da güclənməsinə dəstək verir. Beləliklə, nə Qərb, nə də başqa maraqlı dövlətlər Azərbaycandakı daxili proseslərə müdaxilə etmək imkanı əldə edə bilmirlər. Nə siyasi, nə dini, nə də ictimai motivlərlə Azərbaycan cəmiyyətini parçalamağın mümkünsüz olduğunu görən bu dövlətlər isə beləliklə də bölgənin zəif halqalarına üz tuturlar...

*P.SADAYOĞLU*

# Türkiyə-Yunanıstan münasibətlərində dönüş mərhələsi

Uzun illər Türkiyə ilə Yunanıstan arasında gərginlik davam etsə də, tərəflər arasında münasibətlər yaxşılaşmağa başlayıb. 2020-ci ildən etibarən ikitərəfli münasibətlərdə yaşanan gərginlik dövrü 2023-cü ilin fevralında Türkiyədə baş verən zəlzələlərdən sonra azalmağa başlayıb. İndi iki qonşu ölkə yenidən yaxınlaşma prosesi gedir. Bu müddət ərzində hər iki ölkə qarşılıqlı addımlarla yaxınlaşma prosesinə öz töhfə verir. Təxminən bir ildən artıqdır ki, davam edən yaxınlaşma prosesində iki ölkənin liderləri ilə yanaşı, siyasətçilər mütəmadi olaraq görüşüblər. Prezident Rəcəb Tayyib Ərdoğan ilə Baş nazir Kiriakos Mitsotakis son bir ildə artıq dördüncü dəfədir görüşüblər.

Belə ki, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis mayın 13-də Türkiyədə səfərdə olub. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə baş tutan səfər çərçivəsində rəsmi Ankara ilə Afina arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri, əməkdaşlığın inkişafı istiqamətində atılacaq addımlarla yanaşı, aktual regional və qlobal məsələlərə dair müzakirələr aparılıb.

Səfər çərçivəsində Türkiyə-Yunanıstan əlaqələrinin inkişafına töhfə verəcək bir sıra sazişlər imzalanıb. İqtisadiyyat, nəqliyyat, elm, texnologiya, kənd təsərrüfatı, turizm, səhiyyə kimi müxtəlif sahələrdə əməkdaşlığın davam etdirilməsi, iki ölkə arasında altı milyard ABŞ dollarına yaxın olan ticarət dövriyyəsinin on milyard dollara çatdırılması istiqamətində atılacaq addımlar səfərin əsas mövzuları sırasında yer alıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Yunanıstanın Baş naziri Kiriakos Mitsotakisin görüşündən sonra birgə mətbuat konfransı keçirilib. Rəcəb Tayyib Ərdoğan bildirib ki, görüşlərdə Türkiyə-Yunanıstan münasibətlərindəki bir-biri ilə əlaqəli məsələlər müzakirə edilib, onların dialoq yolu ilə həlli iradəsinə sadiqlik ifadə olunub. Qarşıya iki ölkə arasındakı



ticarət dövriyyəsini 10 milyard dollara çatdırmaq məqsədi qoyulub. "Kipr probleminin adadakı həqiqətlər əsasında ədalətli və qalıcı həllinin tapılması vacibdir. Belə bir addım regionumuzda sabitliyi və əmin-amanlığı gücləndirəcək", - deyə Ərdoğan vurğulayıb.

Baş nazir Mitsotakis isə Türkiyə ilə Yunanıstan arasındakı anlaşma və xoş münasibət mühitinin davamlı olaraq daha müsbət istiqamətdə inkişaf etdiyini, ölkəsinin Türkiyənin Avropa İttifaqına üzvlük məsələsinə dəstəyini davam etdirəcəyini bildirib.

Liderlər görüş zamanı regional və qlobal məsələlər, o cümlədən İsrail ilə Fələstin arasında davam edən qarşıdurmanın da müzakirə olunduğunu bildirərək, Qəzza zolağında dinc əhalinin qorunmasının vacibliyini vurğulayıblar.

Türkiyə Prezidenti terrorla mübarizə məsələsində də Yunanıstanla fikir birliyinin getdikcə gücləndiyini söyləyib: "Bölgəmizin gələcəyində terror təşkilatlarına yer olmadığı ilə bağlı həmfikirik. Əlaqələrimizdəki müsbət atmosferin Yunanıstandakı soydaşlarımızın hüquqlarının təmin olunmasına töhfə verəcəyini gözləyirik".

Xatırladaq ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən il dekabrın 7-də Yunanıstanda səfərdə olmuşdu. Bu, prezident səviyyəsində 65 illik fasilədən sonra Yunanıstana edilən səfər idi. Həmin səfər zamanı Türkiyə-Yunanıstan Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının beşinci toplantısı keçirilmişdi. Afinada Prezident Ərdoğan və Baş nazir Mitsotakisin sədrliyi və əlaqədar nazirlərin iştirakı ilə keçirilən iclasda Türkiyə-Yunanıstan münasibətləri bütün sahələr üzrə nəzərdən keçirilmiş, iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün imkanlar müzakirə olunmuşdu. Baş nazir Kiriakos Mitsotakis isə iki qonşu ölkə arasındakı münasibətlərin yeni dövrünü "sakit sularda gözəl mehlə üzən gəminin kapitanları kimi ikimiz də gözəl bir gələcək yaratmalıyıq" sözləri ilə ifadə edib.

Həmin səfər zamanı Türkiyə ilə Yunanıstan arasında "Dostluq münasibətləri və mehriban qonşuluq haqqında Afina Bəyannaməsi" imzalanmışdı. Bəyannaməyə əsasən, iki ölkə dostluq münasibətlərini inkişaf etdirmək, qarşılıqlı hörmət və beynəlxalq hüquqa əsaslanan siyasə əlaqələri gücləndirmək, aralarındakı hər hansı mübahisələri sülh yolu ilə və beynəlxalq hüquqa uyğun olaraq həll etmək kimi öhdəliklər götürüb. Bundan əlavə, tərəflər ikitərəfli münasibətlərin bütün aspektlərini, xüsusən də iqtisadi əlaqələri gücləndirməyə dair razılığa gəliblər. Bütün bunlar deməyə əsas verir ki, Türkiyə-Yunanıstan münasibətlərində yeni mərhələ başlayıb.

***Nardar BAYRAMLI***

# Gecikmiş dəstək, yoxsa?

## Antoni Blinken ABŞ-ın dəstəyini xatırlasa da, Ukrayna üçün vəziyyət dəyişmir

Rusiya-Ukrayna müharibəsində üstünlük hazırda rus ordusunun tərəfindədir. Buna səbəb Qərb tərəfdaşlarının, xüsusilə ABŞ-ın Kiyevə uzun müddət hərbi dəstək verməməsidir. Belə ki, ötən ilin payızında ABŞ Nümayəndələr Palatası Ukraynaya hərbi yardımla bağlı qanunu qəbul etməməsi səbəbindən Vaşinqtonun Kiyevə dəstəyi dayanmışdı. Sözügedən sənəd Konqresdə ötən ayın sonlarında təsdiqlənib. Prosesin bu qədər uzanması Ukraynaya baha başa gəlib. Belə ki, Rusiya ordusu Donetsk və Xarkov vilayətlərində bir sıra yaşayış məntəqələrini ələ keçirib.

Son vaxtlar müəyyən ərazi itkisini Kiyev də təsdiqləyib. Belə bir şəraitdə Ukraynanın Sumı vilayətinin Belopole və Vorojba şəhərlərinin əhalisi təxliyə olunmağa başlanıb. Bu, Rusiyanın bu şəhərlərə intensiv zərbələri ilə bağlıdır. Sumı Vilayəti Hərbi Administrasiyasının rəhbəri Vladimir Artyux "Biz əhalimizi qorumalıyıq, bu, Ukrayna Prezidenti Volodimir Zelenski tərəfindən mənim qarşıma qoyulan əsas vəzifədir"- deyib. Eyni zamanda, Artyux bildirib ki, bu, məcburi deyil. Belopolye və Vorojba sakinləri, xüsusən də köçmək istəyən uşaqlı ailələr icma sədrlərinə müraciət etməlidirlər. Təxliyə edilən əhali bütün regionda insanların sıx məskunlaşdığı ərazilərdə yerləşdiriləcək.

Ukrayna üçün indiki kritik dönəmdə ABŞ-ın Dövlət katibi Antoni Blinken Vaşinqtonun yardımını müzakirə etmək üçün Kiyevə gəlib. Mayın 13-də Blinken "elan edilməmiş səfərə" qatarla gəlib. Məlumata görə, Blinken Kiyevin "müdafiəni gücləndirmək" və "döyüş meydanında təşəbbüsü bərpa etmək" üçün ABŞ-ın silah təchizatından necə istifadə etməyi planlaşdırdığını müzakirə etmək niyyətindədir. Səfər zamanı Dövlət katibi Prezident Vladimir Zelenski, Baş nazir Denis Şmıqal və xarici işlər naziri Dmitri Kuleba ilə görüşüb. Görüşlərdə döyüş bölgəsində vəziyyət, ABŞ-ın yeni təhlükəsizlik və iqtisadi yardımının təsirləri, uzunmüddətli təhlükəsizlik və digər öhdəliklər və Ukraynanın iqtisadi bərpasını gücləndirmək məqsədilə görülən işlər müzakirə edilib.



Prezident Zelenski ilə görüşündə Blinken deyib ki, növbəti aylarda Ukrayna üçün kritik əhəmiyyətli məsələlərin həlli zəruridir. Onun sözlərinə görə, rəsmi Vaşinqton özünün tərəfdaş dövlətləri ilə birlikdə bu müddətin Ukrayna üçün uğurlu keçməsi istiqamətində səyləri artıracaq. Blinken həmçinin vurğulayıb ki, hakimiyyətə dəstək olan dövlətlər Ukraynanın demokratik, iqtisadi, eləcə də hərbi cəhətdən daha da güclənməsində maraqlıdır: "Hər birimiz Ukraynanın malik olduğu güc, dözüm və liderlik qabiliyyətləri ilə qürur duyuruq. Belə bir çətin zamanda göstərdiyimiz dəstəyin böyük bir hissəsi təqdim olunub, bir qismi isə göndərilmək üzrədir. Edilən yardımlar cəbhədə vəziyyəti Rusiya aqressiyasına qarşı mübarizə aparan Ukraynanın xeyrinə dəyişəcək. Tərəfdaşlarımızla birgə sizin müharibədə qələbə qazanmanız üçün səylərimizi artıracağıq". ABŞ dövlət katibi ölkəsinin Ukraynanın suverenliyinə, ərazi bütövlüyünə və demokratiyasına dəstəyini bir daha vurğulayıb.

Lakin Blinkenin nə deməsindən asılı olmayaraq, fakt odur ki, Ukrayna döyüşlərdə uduzur. Bunun əsas səbəbi, qeyd etdiyimiz kimi Qərb tərəfdaşlarının Kiyevə hərbi yardımı gecikdirməsidir. Aprelin sonlarında Konqresin təsdiqlədiyi 61 milyard dollarlıq yardım isə hələ ünvanına tam çatmayıb. Bir sıra ekspertlər hesab edir ki, Blinkenin səfərinin əsas məqsədi ayrılan vəsaitlə bağlıdır. Çünki Vaşinqtonda belə bir rəy var ki, ayrılan maliyyənin bir hissəsi mənimsənilir, korrupsiyaya məruz qalır. Amma faktdır ki, Qərb ölkələri münaqişənin davam etməsində maraqlı görünür. ABŞ öz maraqları naminə Ukraynanı qurban verir və müharibənin mümkün qədər uzanmasına çalışır. Sözdə Ukraynanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etsə də, reallıqda Qərbin Kiyevə hərbi dəstəyi xeyli azalıb. Bu səbəbdən də, hazırda Ukrayna döyüş bölgəsində ciddi çətinliklərlə üz-üzə qalıb, silah-sursata ehtiyac artıb. Məlumdur ki, ABŞ Konqresində fikir ayrılıqları səbəbindən Ukraynaya hərbi yardım əvvəlki effektivliyində deyildi. Bu səbəbdən rəsmi Kiyev Qərbdən narazılığını açıq-aydın ifadə edir, hərbi yardım üçün ABŞ-a tez-tez çağırış edirdi.

ABŞ 61 milyard dollarlıq yardımı təsdiq etməklə Ukraynaya "müttəfiqliyinə sadiq olduğunu" göstərmək istədi. Görünən odur ki, həmin yardımın ayrılması da Kiyevə döyüş meydanında dəyişiklik etməyə kömək etmir. Çünki vəd edilən silah-sursat Ukraynaya tam göndərilməyib. Üstəlik, "F-16" qırıcılarının Ukraynaya nə vaxt göndəriləcəyi də məlum deyil. Əslində, bu qırıcıların Kiyevə verilməsi cəbhədə dəyişikliklər yarada bilər. Rəsmi Kiyev onların tezliklə təhvil veriləcəyinə ümid edir.

Əslində, bu addımları ilə rəsmi Vaşinqton Ukraynada müharibənin davam etməsində maraqlı olduğunu bir daha təsdiqləyir. Çünki ABŞ Ukraynanın nə tam qalib gəlməsini, nə də tam məğlub olmasını istəmir. Birləşmiş Ştatlar bu yolla öz maraqları üçün "manevr" edir.

***N.BAYRAMLI***

# Rediküllər bu dəfə "Avropa aşiqi" qiyafəsində...

Ölkəmizdəki rediküllər düşərgəsində çox tez-tez sərsəm iddiaların səsləndirilməsi bir növ adət halını alıb. Belə "xoruz banı eşitməmiş" fikirlər düşərgəyə bir qayda olaraq AXCP sədri Əli Kərimli tərəfindən ötürülür. Sonradan isə onun Cəmil Həsənli, Qənimət Zahid, filankəs O.qızı, Gültəkin Hacıbəyli, Fuad Qəhrəmanlı kimi çiyindaşları bu "tezisləri" özlərisayağı inkişaf etdirməkdən ötrü dəridən-qabıqdan çıxırlar.

Budur, AXCP sədri son olaraq Avropa mövzusu ilə gündəmə gəlib. Əli Kərimli özünü sözün əsl mənasında Avropa aşiqi qiyafəsində təqdim edir. O, fərqinə varmadan Avropa İttifaqını dünyanın "ən mütərəqqi siyasi layihələrindən biri" kimi təqdim edərək bildirir ki, rediküllər üçün Avropaya inteqrasiya Aİ-nin dəyər və prinsiplərini Azərbaycanda da üstün dəyər və prinsiplərə çevirməkdir.

AXCP sədrinin gündəmə gətirdiyi Avropa mövzusu onun bağlı olduğu Qərb dairələrinə yarınmaq cəhdindən başqa bir şey deyil. Azərbaycan öz kursunda qətiyyətli və ardıcıldır, müstəqil siyasətə malik olan dövlətdir. Kənardan ixrac olunan dəyərlər, prinsiplər burada keçərli deyil. Ölkəmiz üçün keçərli olan yeganə meyar isə milli maraqlarımızdır. Ölkənin, xalqın milli maraqları nəyi diktə edirsə, Azərbaycan dövləti də məhz siyasətini həmin istiqamətdə qurur. Bəli, son vaxtlarda bəzi idarə olunan Avropa təsisatları respublikamıza qarşı qərəzli yanaşmalar sərgiləyirlər. Azərbaycan isə susmur. Respublikamızın Azərbaycanafob dairələrə, ölkələrə və təsisatlara cavabı kifayət qədər sərt olur. Çünki biz həqiqəti deyirik, ədalət mövqeyindən çıxış edirik və qarşı tərəfdən də bunu istəyirik. Hazırda Azərbaycan "qoca qitə"nin enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Bu rol gələcəkdə daha da artacaq. Ancaq bu əməkdaşlıq, enerji dialoqu heç bir halda milli maraqlarımızın arxa plana keçməsi anlamında qəbul edilməməlidir. Necə ki, Əli Kərimli kimi rediküllər bunu məhz belə anlayıb qavrayırlar. Genişlənən əməkdaşlığa baxmayaraq, Aİ-yə üzv qəbul olunmaq ölkəmizin planlarına daxil deyil. Qardaş Türkiyənin təcrübəsi də göstərir ki, bu barədə planlar qurmağın heç bir perspektivi yoxdur.

Hazırda Əli Kərimlinin Avropa musiqisinə qol götürüb oynaması yada bəzi məqamları salır. Biz daim müşahidə etmişik ki, rediküllər mövcudluqları tarixində həmişə Azərbaycana aidiyyəti olmayan, ölkəmizə, xalqımıza düşmən münasibəti göstərən dairələrdə özlərinə dayaq axtarıblar. Bunun təsdiqi üçün yalnız bir neçə məqamı xatırlatmaq istərdik. Rediküllər zamanında Rusiya prezidenti Vladimir Putinə məktub ünvanlamışdılar. Onların Kremlə şanlı namə göndərmələrinin yeganə səbəbi şimal qonşumuzdan dəstək almaq ümidi idi. Təbii ki, Kremldə redikülların reallıqdan uzaq iddialarla yüklənmiş məktubu ciddiyə alınmayaraq zibil qutusuna atıldı. Əli Kərimlinin və çiyindaşlarının SOROS Fonduna yarınmaq üçün necə böyük canfəşanlıqlar göstərdiklərini xatırlamaqda da bir fayda var. Həmin ərəfədə bu fonda ayrı-ayrı ölkələrdə satqın "liderləri" önə çəkməklə rəngli inqilablar həyata keçirməklə şöhrət tapmışdı. Rediküllər bədnam ssenarilərin Azərbaycanda da reallaşdırılması ilə bağlı xam xəyallar qururdular. Həmin xəyallar da ölkəmizin reallıqlarına, xalqın istəyinə adekvat olmadığı üçün suya düşüb əridi. Bir neçə il bundan qabaq, konkret desək, Nardaran hadisələri ərəfəsində isə Əli Kərimli sözün əsl mənasında dini qiyafəyə bürünərək iranşünaslıq edirdi. Ümidi də o idi ki, həmin hadisələr fonunda "lider" qiyafəsində irəli çıxsın. Ancaq bu dəfə də onun oxu daşa dəyərək çilik-çilik olmuşdu...

Belə görünür ki, Əli Kərimli küləyin səmtinə əyilmək xislətindən geri çəkilməyib. O, indi də baş verən hadisələr, müşahidə edilən geosiyasi proseslər fonunda Avropa İttifaqının Cənubi Qafqazda revanş cəhdləri sərgilədiyi qənaətindən çıxış edir. Bu qənaət də səhvdir. Ən azından ona görə ki, Əli Kərimli yenə də Azərbaycan reallığını və həqiqətlərini unudur...

***MÜBARİZ***

# Kişi əmrinə möhtac kişi düşməni

## Avqust Strindberqin "Fröken Jüli" pyesi haqqında

**əvvəli ötən sayımızda**

Onlar birlikdə qaçış planı cızırlar. Söhbət əsnasında Jülinin dərdi açılır, kişilərə nifrət bəsləyən anasından danışır. Məlum olur ki, qızın anası kişiyə təslim olmağı, ailəni, fədakarlığı özünə əskiklik bilirmiş, Jülini də istəmədən dünyaya gətirib. Atası frökeni uşaqlıqdan oğlan kimi böyüdüb, bu səbəbdən Jüli nə qızlığından, nə də oğlanlığından yarıyıb. İndi qızın qadınlığı dilə gəlib, təbiəti üzünə durub, fəqət onun kişilərlə davranmaq təcrübəsi yoxdur, sevmək əlindən gəlmir, buna görə də ünsiyyətdə olduğu kişini alçaltmaqdan, onun qarşısında alçalmaqdan şeytani bir zövq alır.

Jüli kişi tayfasına nifrət bəslədiyini Janın qarşısında açıq-aşkar boynuna alır. Bununla belə bir-birinə qoşulub uzaq, əlçatmaz bir yerə qaçmağı, bir-birindən doyunca zövq alandan sonra birlikdə ölməyi də Jana təklif eləyir. Lakeyinsə bu təklif heç ürəyindən olmur, onu ölmək yox, yaşamaq, varlanmaq, oğul-uşaq yiyisi olmaq, bu dünyadan köçməmiş övladlarının mənsəbini, ictimai rütbəsini artırmaq düşündürür. Hiyləgər Jan Jülinin fitvasına gedəcək qədər romantik deyil, daha doğrusu, onun xarakterində romantikadan əsər-əlamət yoxdur.

Fröken Jüli isə romantikdən daha çox infernal qadın, Dostoyevskinin Nastasya Filippovnası kimi cəhənnəm mələyidir. O, problemi çözməyə yox, daha da dolaşdırmağa can atır; o həddəcən dolaşdırmağa ki, onu çözmək bir daha mümkün olmasın, sonda güman tiyəsi itilənmiş bir bıçağa, ya da bir ülgücə çatsın.

***

Artıq gecədən çox keçib, qraf səfərdən qayıdandan sonra plan qurmağın mənası qalmayacaq. Başına gəlmiş müsibətin, rüsvayçılığın yükü altında Jüli atasının evində, nökər-qaravaşın arasında dolana bilməz. Lakey ona təkbaşına qaçmağı məsləhət görür, ancaq bu, mümkün deyil.

Fröken Jüli bir aristokrat qızı kimi oğurluğa, əyriliyə alışmayıb, üstəlik, müstəqil davranmaq, sərbəst qərar vermək gücündə də deyil. Bu səbəbdən Jandan xahiş eləyir ki, təşəbbüsü ələ alıb ona əmr versin, üstün varlıq kimi qabağa düşsün. Kişi düşməni kişilikdə haqqı olmayan ən aşağı məxluqun əmrinə, göstərişinə möhtac qalır. Lakey Jan əlinə verilmiş səlahiyyətdən var gücüylə yararlanır, qıza atasının saxlancından pul götürmək əmri verir. Jüli müticəsinə əmri yerinə yetirir.

Onlar çamadanlarını yığıb yola çıxmağa hazır olanda Kristina yuxudan durub mətbəxə gəlir. Adaxlısıyla xanımının davranışlarından qulluqçu işin nə yerə çatdığını anlayır. Kristina onları baş-başa buraxıb kilsəyə səhər ibadətinə gedir. Qulluqçunun ilahi möcüzəyə saf ürəkdən inanması fröken Jülini təəccübləndirir. Jülinin qəlbi belə inama açıq deyil. Onun üçün qəfəsdə saxladığı quşa tapınmaq Tanrıya tapınmaqdan qat-qat asandır.

Əslində, o quş elə gənc xanımın bəzəkli qəfəsdə çırpınan ruhudur. Jüli quşu da özüylə aparmaq istəyir, ancaq onu tuta bilmir. Xanımın inadkarlığı lakeyi qəzəbləndirir, Jan quşu tutub qəfəsdən çıxarandan sonra mətbəx bıçağıyla boynunu vurur. Bununla da faktiki olaraq fröken Jülinin edamına fərman verir, ona ta uşaqlığından acılar çəkdirmiş, zədələr vurdurmuş bir sülaləyə son qoyur, onun əlini çörəyə çatdırmış ağasının nəslini kəsir. Bundan sonra Jülinin intiharı quşun qətlinə illüstrasiya kimi görünür (tərsinə də söyləmək olar).

***

Ancaq xanım sonuncu addımını atmaqda da sərbəst deyil. Artıq qraf səfərdən qayıdıb, yuxarıdan aşağı zəng vurub çəkmələrini istəyir. Tezliklə o, xəzinəsinin yarıldığından xəbər tutacaq.

Son bir neçə saatda fröken Jülinin üzərində ağalıq təcrübəsi keçmiş lakey ağasının səsini eşidəndə vur-tut nökər olduğunu, heçkim olduğunu bir daha xatırlayır. Ancaq bu nökər daha əvvəlki nökərə bənzəməz, bu nökər ən yaxın dəqiqələrdə ağasının soy ağacını bir baltayla yıxacaq. Fröken Jüli yenə ondan əmr istəyir - özünü öldürmək əmri. Xanım lakeyin uzatdığı ülgücü ondan alıb əmrə müntəzir içəridən çıxır...

Gerisini təsəvvürə gətirmək çətin deyil. Əgər bolşevik inqilabı İsveçdə baş vermiş olsaydı, lakey Jan o qanlı çevrilişin liderləri sırasında yer tutacaqdı. Ancaq İsveç xalqına xoşbəxtlikdən belə bədbəxtlik üz vermədi.

Belə isə lakey Jana hansı yol qalır? Yəqin ki, o, tezliklə ağasını zəhərləyəcək. Bəs necə, axı artıq dişi qana batıb! Qrafın pullarının bir qismini mənimsəyib özünə gün-dirrik quracaq. Otel də tikdirəcək, restoran da açacaq, əkin də əkdirəcək, mal-qara da saxladacaq. Ağasının mülkünü olmayan varisindən satın alacaq. Sonra da o mülkün həyətində at oynadıb keçmiş nökər həmkarlarını ləzzətlə qamçılayacaq. O evdə, o sarayda sinirlərini yaralamış nə varsa, heç birindən qisas güllələrini, intiqam atəşini əsirgəməyəcək. İllər sonra biznes kralına çevriləcək, puldan silah kimi istifadə eləyəcək. Bəlkə bu gün dünyada dövr eləyən kapital damarlarında lakey Janın fröken Jülinin qanına bulaşıq pulları da fırlanır...

***

Henrik İbsendən fərqli olaraq Avqust Strindberq qadın emansipasiyası mövzusuna, yumşaq desək, o qədər də isti yanaşmırdı. Sadə xalqın, zəhmətkeş kəndlinin yüz illərin sınağından çıxmış ailə münasibətləri, həyat tərzi ondan ötrü əsl örnək idi. Əsrlər boyu qadın ev, kişi də çöl işləriylə məşğul olub, burada yeni nəsə uydurmağa, yerləri, vəzifələri qarışıq salmağa ehtiyac yoxdur. Təbiətə yanaşmaq, xalqın təbiətlə həmahəng vuran qəlbini dinşəmək gərəkdir. O zaman qadın da, kişi də öz dərsini yaxşıca mənimsəyib əzəli missiyasını dərk eləyəcək, vəzifəsini sevə-sevə yerinə yetirəcək, səlahiyyətini aşmağa cəhd göstərməyəcək.

Əgər fröken Jüli kişi düşmənliyini özünə prinsip seçib kişi kimi davranmağa çalışmasaydı, sevdiyi kişini (əlbəttə, söhbət Jandan getmir) alçaltmaqdan yox, ucaltmaqdan zövq alsaydı, canındakı coşqun qadınlıq enerjisindən təyinatı üzrə istifadə eləməyi bacarsaydı, kindən, nifrətdən don geyinmiş xain lakeyin girovuna da çevrilməzdi. Jan nə qədər qəddar, zalım olsa da, dediklərində həqiqət payı var: sadə el qızları adətən aristokrat Jüli kimi davranmırlar, onlar saf könüldən sevməyi də, sevdiyinə bir rahibə itaətiylə təslim olmağı da, sevdiklərinin üstündə əsməyi də bacarırlar.

Qulluqçu Kristina da o qızlardan biridir. Xanımının davranışları onda ikrah doğurur, qadın qrafın evindən getməyə hazırlaşır. Onun lakey Janla izdivacı, çox güman, uğurlu, həm də təbii olardı, onda Janın qəlbini kinküdurət hisi-pası bu qədər qaraltmazdı, mömin Kristina onu harama, cinayət yoluna itələməzdi.

Fəqət fröken Jülinin yanlış sevgi siyasəti üç ömrü birdən tarmar elədi, üç həyatı bir həmlədə xaraba qoydu. Bundan sonra lakey Janla qulluqçu Kristinanın xoşbəxt ailə qurmağı, halal zəhmətlə, sakit vicdanla, dinc ürəklə yaşamağı mümkün deyil. Kristina ya Janın yelinə uçub onun cinayətlərinə şərik olacaq, ya da monastıra gedib gözüylə gördüklərinin günahını vicdanından silməyə çalışacaq...

Göründüyü kimi, qadın emansipasiyası, feminizm heç də hər kişi mütəfəkkirin alqışladığı, rəğbət bəslədiyi məsələ deyil. Kimi qadının xoşbəxtliyini onun cəmiyyətdəki statusunun artırılmasında, kimi də onun təbiətdəki ənənəvi yerinə qaytarılmasında görür. Henrik İbsen birincilərdən, Avqust Strindberq ikincilərdəndir. Onlar üzdə bir-birinə rəqib görünsələr də, bir-birini tamamlayırlar: İbsenin Norası toplumun tam səlahiyyətli üzvünə çevriləndə əzəli təbii missiyasına qayıdacaq; Strindberqin Jülisi isə əzəli təbii missiyasına qayıtmaqla mənəvi aristokratiyanın tam səlahiyyətli üzvünə çevriləcək.

***

Avqust Strindberq həm nasir, həm dramaturq kimi təkcə İsveç, Avropa yox, bütün dünya ədəbiyyatına təsir göstərmiş yazıçıdır. İsveç xalqı bir sıra fikir, sənət yeniliklərinə Avropanın aparıcı xalqlarından bir qədər gec qapı açmış olsa da, belə azman mütəfəkkirlərin, sənətkarların sayəsində böyük qonşularına yetişib onlarla ayaqlaşa bildi.

Strindberqin pyesləri bu gün də dünya səhnəsindən düşmür, romanları bütün qitələrdə çap olunur. Onun yaradıcılığının dalğaları öz ölkəsində dünyaya gəlmiş Per Lagerkvistdən üzü bu yana ta uzaq Yaponiyada yazıb-yaratmış Akutaqava Rünoskeyə qədər hər yeri vurub. Dünya ədəbiyyat ordusunun avanqardında yer almaq hər xalqa, hər dilə nəsib olmur. İstər xalqı, istərsə də dili yaşadan ən vacib amillərdən biri budur.

Sonda bizi kiçik xalq sayanların, dilimizə, ədəbiyyatımıza xor baxanların nəzərinə bunu da çatdırmaq istərdim ki, ərazisi böyük olsa da, İsveçin əhalisi elə Azərbaycan əhalisinin sayı qədərdir - on milyondan bir az artıq. Deməli, bu qədər insanın danışdığı dillə də dünya ədəbiyyat bazarını zəbt eləmək olarmış...



**F.Uğurlu**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Cəmiyyətin təməl daşı...

## Beynəlxalq Ailə Günüdür

Hər bir cəmiyyətdə ailə mövzusu daim aktual problemlərdən biri hesab olunur. Bildiyimiz kimi, ailə ictimai-tarixi hadisədir. Cəmiyyətin formalaşması və onun başlıca özəyini təşkil edir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə şərtlənir. Etiraf edək ki, cəmiyyətdə hansısa dəyişikliklər baş verərsə, bu, ilk növbədə ailələrə təsir göstərir. Bir sözlə, kiçik sosial qrup olmasına baxmayaraq, ailə və onun qorunması məsələsi zaman-zaman aktuallaşır.

Bu gün Beynəlxalq Ailə Günü kimi qeyd olunur. Belə ki, BMT Baş Assambleyası tərəfindən 1993-cü ildə qərar qəbul edilib. Bu günün qeyd olunmasında məqsəd isə planetimizdə yaşayan bütün insanların diqqətini bir daha ailə problemlərinin həllinə yönəltmək məqsədi daşıyır.

Ölkəmizdəki ailədaxili münasibətlərə, mövcud olan problemlərə, boşanmaya səbəb olan amillərə və statistikaya diqqət yetirək. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin ilk ayında 3657 nikah və 1729 boşanma halları qeydə alınıb. Ötən ilin müvafiq ayı ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,6-dan 4,2-yə düşüb, boşanmaların sayı isə 1,6-dan 2,0-a qədər artıb.

**Ailədaxili problemlərdə iqtisadi amillər...**

Etiraf edək ki, günümüzdə ailə quran cütlüklərin yaşadığı problemlər arasında iqtisadi faktorlar mühüm rola malikdir. Münasibətlərə xələl gətirən iqtisadi amillərə-işsizlik, həyat səviyyəsinin aşağı olması və yoxsulluğu qeyd edə bilərik.

**Avropa dəyərlərinin cəmiyyətimizə təsiri...**

Bəzən sosial şəbəkədə bir qrup şəxs Azərbaycanda ailə institutunun yararsız olması ilə bağlı təbliğat aparır. Onlar bildirirlər ki, həm ailə, həm də milli-mənəvi dəyərlər cəmiyyətin inkişafına ayaq bağı olur, bundan qurtulmaq lazımdır. Onların iddialarına görə, ailə institutu köhnəlmiş bir ənənədir. Bu xəttin tərəfdarları özlərini müxtəlif cinahların, hərəkatların nümayəndəsi kimi təqdim edirlər. Bir qrup bildirir ki, feministdirlər, digər bir qrupu özlərini liberal adlandırır. Həmin şəxslər Avropa ölkələrindəki ailələri misal gətirirlər. Lakin Avropanın bütün dəyərlərini olduğu kimi öz cəmiyyətimizə gətirə bilmərik. Bu, tərəflər arasındakı problemlərə, ailələrin dağılmasına yol açır.



**Gender bərabərliyi...**

Çox vaxt ailədaxili münasibətlərin korlanmasında gender bərabərliyinin qorunmaması vacib rol oynayır. Lakin əksər hallarda gender bərabərliyi ilə bağlı yanlış təbliğat aparılır. Bu da gender bərabərliyindən danışarkən yalnız qadın hüquqlarının pozulması barədə informasiyalardır. Ancaq unutmamalıyıq ki, gender bərabərliyi, eyni zamanda, kişi hüquqlarının pozulması deməkdir. Düzdür, qadınların iqtisadi cəhətdən gücləndirilməsi ailə münasibətlərinə təsir edir. Ailə büdcəsinə öz töhfələrini verməklə bərabər, qadınların özünə inamı artır, ailədə iqtisadi cəhətdən asılı olmurlar. Lakin təəssüflər olsun ki, ölkəmizdə gender bərabərliyi adı altında yanlış təbliğat aparılır. Ailədə qadınlar kimi kişilər də kifayət qədər fəallıq nümayiş etdirirlər. Amma bəzi hallarda qadınların kişiləri istismar etməsinin də şahidi oluruq. Məsələn, gününü alış-verişlərdə, gözəllik salonlarında keçirməyi sevən qadınlar heç bir yerdə işləmədikləri halda kişidən maddi tələbatını ödəməyini israr edir. Bunu isə kişilərin bir növ istismarı adlandırmaq olar.

**Sosial şəbəkələr ailələri necə məhv edir?**

Aparılan araşdırmalara görə, son illər bütün ölkələrdə sosial şəbəkələrin ailə münasibətlərinə mənfi təsiri artıb. Dünyada qeydə alınan boşanmalarda Vatsap yüzdə 40 nisbətində rol oynayır. İkinci yerdə Feysbuk, üçüncü yerdə isə sigər sosial şəbəkələr gəlir. Yeniyetmələrin, evli qadınların evdən qaçması artıq “dəb” halına çevrilib. Bu kimi hadisələrin kökündə dayanan səbəblər araşdırılanda isə məlum olur ki, ailədən qəfil uzaqlaşma sosial şəbəkədə baş tutan hansısa tanışlıqla bağlıdır. Bu baxımdan sosial şəbəkələrin ailə münasibətlərinə mənfi təsiri, boşanmalara yol açması danılmazdır.

**Çıxış yolu nədir?**

Psixoloq Elnur Rüstəmov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, ümumiyyətlə, son illər bir çox dünya ölkələrində boşanma saylarının artmasını müşahidə edirik: “Müasir ailə modelində stresə dayanıqlılıq, tərəflərarası emosional sabitlik və problemin həll etmə bacarığının getdikcə azalması, sosial şəbəkələrdən asılılıq, ailədə asudə vaxtın düzgün təşkil olunmaması kimi bir çox səbəblər ailədaxili münaqişələrə və boşanmalara gətirib çıxarır. Bu məsələdə mənəvi, psixoloji məqamlar da əksini tapmaqdadır. Bu gün boşanmaların səbəbkarı kimi yalnız bir cinsi günahlandırmaq düzgün olmazdı. Çünki hər iki tərəf ailə öhdəliyinin, dəyərlərinin, hüquqlarının, ailədə sağlam psixoloji mühitin qorunması müstəvisində eyni dərəcədə məsuliyyət daşıyır. Burada əsas məsələ isə boşanmalara səbəb olan amillərin mümkün qədər aradan qaldırılması, bu, mümkün olmadıqda isə nikahların pozulmasından sonra yaranan hüquqi-psixoloji problemlərin qanuni və sivil şəkildə həll olunmasıdır.

Dövlət ailə siyasətinin həyata keçirilməsi istiqamətində milli-mənəvi dəyərləri özündə ehtiva edən ailə institutunun qorunub saxlanılması və möhkəmləndirilməsi üçün kompleks tədbirlərin görülməsi mühüm əhəmiyyət kəsb edir. Ailələrin daha möhkəm və sağlam əsaslar üzərində qurulması, güclü ailələrin formalaşması aidiyyəti qurumların qarşısında duran əsas vəzifələrdəndir. Bu istiqamətdə mütəmadi olaraq genişmiqyaslı tədbirlər və maarifləndirmə layihələri həyata keçirilməlidir”.

Göründüyü kimi, ailələrin dağılma səbəbi konkret bir məsələdən ibarət deyil. Buraya maddi durumdan tutmuş, mənəvi, psixoloji amillər də daxildir. Ekspertlərin fikrindən ümumi belə bir qənaətə gələ bilərik ki, ailə qurulmadan öncə ölçülüb-biçiləcək çox incə məqamlar var. Həmin məqamlar ilk baxışdan ciddi görünməsə də ailə quran şəxslərin bu istiqamətdə maarifləndirilməsi vacibdir.

*Yeganə BAYRAMOVA*




# Bakıda keçiriləcək “GSMA M360 Eurasia 2024” konfransına 2 gün qaldı

“Azercell”in ev sahibliyi etdiyi “M360 Eurasia 2024” tədbirinə qeydiyyat davam edir

May ayının 15-i “GSMA M360 Eurasia 2024” konfransının açılışı baş tutacaq. Bakıda ikinci dəfə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi və “Azercell Telekom” MMC-nin baş sponsorluğu ilə keçiriləcək bu tədbir çərçivəsində 2 gün ərzində maraqlı məruzələrin və panel iclaslarının yer alması gözlənilir. Tədbir çərçivəsində rəqəmsal dövrün ən aktual tendensiyaları ətrafında fikir mübadiləsi aparılacaq.

Konfransa beynəlxalq və regional ekspertlər, şirkət rəhbərləri və region üzrə tənzimləyici qurumların nümayəndələri qatılacaq. Onlar həm regionun, həm də digər ölkələrin rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün bütün bazar iştirakçılarının birgə fəaliyyətinin əhəmiyyəti haqqında danışacaqlar.

Belə ki, “GSMA M360” rəqəmsal dövrün ən aktual tendensiyalarını bir daha gündəmə gətirəcək. Konfransda süni intellekt, kibertəhlükəsizlik, sənayenin rəqəmsallaşdırılması, yeni nəsil şəbəkələr, yaşıl texnologiyar və s. mövzular ətrafında fikir mübadiləsi aparılacaq. Eyni zamanda, Rəqəmsal DNT (Digital DNA) mövzusuna həsr olunmuş sessiyada gələcək nəsillərin inkişaf edən əmək bazarına uğurlu adaptasiyası üçün lazımlı bacarıq və qabiliyyətlər barədə maraqlı müzakirələr baş tutacaq.

COP29 ərəfəsinə təsadüf edən bu konfransda ətraf mühit, sosial və idarəetmə (ESG) prinsipləri də müzakirə olunacaq. Bu sessiyada rəqəmsallaşma prosesinin və iqlim fəaliyyətinin bir-birinə təsiri, qlobal telekommunikasiya liderlərinin ESG prinsiplərinə riayət etmək üçün gördüyü işlər, rəqəmsal innovasiyaların ətraf mühitin dayanıqlığına verdiyi töhfə barədə danışılacaq. Xatırladaq ki, COP29 Azərbaycanda cari ilin noyabr ayında keçiriləcək.

Qeyd edək ki, bu il “GSMA M360 Eurasia 2024” konfransına “Microsoft”, “Google”, “Amazon Web Services”, “World Bank”, “e& International”, “Beeline, Vodafone Group”, “Turkcell”, “East Telecom” və digər beynəlxalq şirkətlərin rəhbər heyətindən məruzəçilər qatılacaq.

Yerlər limitli olduğundan tədbirdə iştirak etmək istəyən hər kəs öncədən GSMA M360 Eurasia səhifəsində qeydiyyatdan keçməlidir.

“JW Marriott Absheron Baku” mehmanxanasında baş tutacaq tədbirə qatılın, gələcəyi formalaşdıran müzakirələrin bir parçası olun!

## İdman

# Qadın həndbolçular arasında Azərbaycan çempionatına yekun vurulub




Qadın həndbolçuların Azərbaycan çempionatı başa çatıb.

Azərbaycan Həndbol Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yarışa Mingəçevirdə yekun vurulub.

“Kür” Olimpiya İdman Tədris Mərkəzində keçirilən oyunda çempion “Qarabağ” gümüş medalların sahibi “Kür”ün qonağı olub. Bu, rəqiblərin yubiley çempionatındakı 4-cü görüşü idi. Bunadək keçirilən hər üç oyunda “Qarabağ” qalib gəlib.

Mövsümün son matçı meydan sahiblərinin çempion üzərində 36:26 hesablı qələbəsi ilə tamamlanıb. Bu nəticədən sonra “Qarabağ”la xal fərqini minimuma endirən “Kür” komandası mövsümü 25 xalla ikinci pillədə bitirib. Aktivində 21 xalı olan “Azəryol” ilk “üçlüy”ü qapayıb.

# Azərbaycan güləşçiləri beynəlxalq turnirdə 3 medal qazanıblar

Azərbaycanın yunan-Roma güləşçiləri Rusiyanın Kaspiysk şəhərində SSRİ-nin tanınmış idmançısı Surakat Asiyatilovun xatirəsinə həsr edilmiş 20 yaşadək yeniyetmələr arasında beynəlxalq turnirdə uğurla çıxış ediblər.

AZƏRTAC xəbər verir ki, yarışda milli komandanın 3 üzvü fəxri kürsüyə qalxıb.

Yığmanın heyətində yalnız finalda məğlub olan Təvəkkül Həziyev (67 kiloqram) gümüş medalın sahibi olub. Tural Əhmədov (60 kiloqram) və Cocu Səmədov (87 kiloqram) isə bürünc mükafata yiyələniblər.

Qeyd edək ki, turnirdə 7 ölkədən ümumilikdə 190 güləşçi mübarizə aparıb.




# Akrobatika gimnastlarımız Dünya Kubokunda iştirak edəcəklər



Azərbaycanın akrobatika gimnastları Portuqaliyanın Maya şəhərində keçiriləcək Dünya Kubokunda iştirak edəcəklər.

Azərbaycan Gimnastika Federasiyasından AZƏRTAC-a bildiriblər ki, yarışda Ağasif Rəhimovla Raziyyə Seyidli, Sabir Ağayevlə Milana Əliyeva qarışıq cütlüyü, Daniel Abbasov və Murad Rəfiyev kişi cütlüyü, Riad Səfərov, Abdulla Əl-Məşayxi, Seymur Cəfərov və Rəsul Seyidli kişi qrupu bacarığını nümayiş etdirəcək.

Milli komanda məşqçilər İradə Qurbanova və Leyla Əliyevanın rəhbərliyi altında mübarizə aparacaq.

Həmçinin turnirdə Dürdanə Əhmədova hakim kimi ölkəmizi təmsil edəcək.

Dünya Kuboku mayın 17-19-da təşkil olunacaq.

# Azərbaycan Üzgüçülük Federasiyasına yeni vitse-prezident seçilib




Azərbaycan Üzgüçülük Federasiyasına (AÜF) yeni vitse-prezident seçilib.

Qurumun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu vəzifə Tamerlan Abdullazadəyə həvalə olunub.

Qərar AÜF-nin İcraiyyə Komitəsinin son iclasında qəbul edilib. Müzakirələrdən sonra komitə üzvləri T. Abdullazadənin namizədliyini yekdilliklə dəstəkləyiblər.

O, son olaraq Azərbaycan Üzgüçülük Federasiyasının baş katibinin müavini vəzifəsində çalışıb.

İclasda, həmçinin 2024-cü ilin fəaliyyət planı, keçirilən yarışlar, yerli və beynəlxalq turnirlərdə idmançıların iştirakı müzakirə olunub.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5652
Sifariş: 1090
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova